www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 fevral 2015-ci il Çərşənbə № 25 (6053) Qiyməti 40 qəpik

## Xəbər

### Naxçıvanda qırğın kimi qəza: 4 ölü, 2 yaralı

yazısı səh.14-də

## Gündəm

### Həmsədrlər prezidentlərin görüşünü təşkil etmək istəyir



"5-lik Sədrlər Şurası" təklifindən dərhal sonra Minsk Qrupu üzvlərinin aktivləşməsi maraq doğurur; Türkiyə və Almaniya həmsədrlərin sayının artırılması məsələsinə münasibət bildirdi

yazısı səh.11-də

### Xanım jurnalist məhkəməsinin açıq keçirilməsini istəyir

yazısı səh.6-da

### Ukrayna səfiri Strasburqda Azərbaycanın Rusiyaya tərəf olmasını pisləyib

yazısı səh.9-da

### Qız qalasının başında kürü və şampan ziyafəti ortalığı qarışdırdı

yazısı səh.13-də

### Hakimiyyət seçki komissiyalarının dəyişdirilməyəcəyini bəyan etdi

yazısı səh.4-də

### İntiqam Əliyevə ittiham elan olundu

yazısı səh.3-də

### Bakı Vaşinqtona yəhudi lobbisi ilə təsir etmək istəyir

yazısı səh.9-da

### Söyün Sadıqov satqınlıqda suçlandı

yazısı səh.8-də

### Qubad İbadoğlu partiyadan çıxarılacağını gözləyir

yazısı səh.4-də

### Şeyxin yaxın adamının evindən 100 min manat oğurlandı

yazısı səh.14-də

### Ölkədə ət ucuzlaşdı

yazısı səh.13-də

### Varlanmaq istəyirsinizsə, pulunuzu bu sahələrə yatırın...

yazısı səh.15-də

## AS PA-dakı bir qalmaqallı səsvermənin ilginc pərdəarxası

# İRƏVANA QARŞI GİZLİ MOSKVA-BAKI-ANKARA ANLAŞMASI - İDDİA

Rusiya nümayəndə heyətinin uydurma soyqırımın 100 illiyi haqda sənədi əngəlləməsinin əvəzində Kremlə qarşı qətnamə əleyhinə öncədən Azərbaycan və Türkiyənin dəstəyini aldığı iddia olunur; düşmən ölkə deputatlarının Moskvaya qarşı de-marşının nədəni üzə çıxır...




yazısı səh.7-də

# Vergilər Departamenti "plana" düşdü

Prezident nazirin ən böyük idarəsini ləğv etdi; Vergilər Nazirliyinin Bakı Şəhər Vergilər Departamentinin ləğvini dövlətin ixtisarı hesab edənlər də var, Fazil Məmmədovun vurulması sayanlar da

yazısı səh.10-da



*Rəbiyyət Aslanova:*

### "Nurçularla heç bir əlaqəmiz yoxdur, ola da bilməz"

yazısı səh.5-də



### Politoloqdan Abbas Abbasovun milli mənşəyi haqda şok iddia

yazısı səh.8-də



Nəcməddin Sadıkov

### Dərbənddə mənimsənilən milyonların izi generala aparır

yazısı səh.12-də

## İlham Əliyev "Mercedes" mikroavtobuslara baxıb



**Prezident İlham Əliyev və xanımı, "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva "Bakubus" MMC-nin ilk Avropa Oyunları üçün avtobus deposu və təlim mərkəzində, Bakı İdman Sarayında görülən işlərlə tanış olublar.**

Dövlət başçısına avtobus deposu və təlim mərkəzində aparılan işlər barədə məlumat verilib. İlham Əliyev Zığ gölünün kompleks bərpası layihəsi çərçivəsində görülən işlərlə də maraqlanıb.

Sonra prezident və xanımı ilk Avropa Oyunlarında iştirak edən yüksək səviyyəli qonaqların daşınması üçün alınan "Mercedes" markalı mikroavtobuslara baxıblar. İlham Əliyevə "Bakubus" MMC-nin İVECO markalı yeni avtobusları barədə də məlumat verilib. Bildirilib ki, ilkin mərhələdə Fransa istehsalı olan 302 avtobus alınıb.

Daha sonra İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı İdman Sarayında aparılan yenidənqurma işlərinin gedişi ilə tanış olublar.

## Alman fotoqraf bir fotosunu 4.3 milyon dollara satdı



**Alman fotoqraf Andreas Qurskinin 1999-cu ildə çəkdiyi "Reyn 2" adlı işi 2011-ci ildə naməlum alıcı tərəfindən ağlasığmaz qiymətə alınıb. Nyu-Yorkda Kristi hərracında ona 4,3 milyon dollar verilib. Bu isə bizi ölkə mətbuatının fotoqraflarına bu sualı verməyə vadar etdi. Ən sevdiyiniz fotonuzu neçəyə satarsız?**

Tanınmış fotoreportyor, hazırda İsveçrədə mühacir həyatı yaşayan Abbas Atilay bildirdi ki, bunu dəqiq deyə bilməz: "Əgər rəsm əsəri olsa qiymət deyə bilərəm, axı rəsm əsəri bir dənə olur, yəni satılanda artıq onu bir daha görə bilmirsən. Ona görə elə qiymət deyərəm ki, bu ayrılığı bir az ovundurar. Amma foto belədir ki, onun orijinalı hər zaman sizdə qalır. Onu neçəyə satsanız da, o hər zaman sizindir".

**Müsahibimiz dedi ki, azərbaycanlılarla - media və ya fərd olaraq foto ilə bağlı heç vaxt pul danışığı aparmayıb, hər zaman təklif olunanla razılaşıb:** "Pul təklif etməyənlər daha çox olur, onlarla da razılaşıram. Azərbaycanlılardan və mediadan pul təklifi gözləmirəm, sadəcə, fotolarımı istifadə edərkən müəllifi qeyd etsinlər. Hər bir gözəl foto min cür əziyyət bahasına başa gəlir. Əziyyətimizi yerə vurmasınlar".

**"Yeni Müsavat" qəzetinin fotoreportyoru Məhəmməd Türkmən isə dedi ki, sual maraqlı olsa da, cavab vermək çətindir:** "Ən azından mənim üçün... Çünki bu sahədə yenilərdənəm. Sadəcə, bir neçə ildir ki, kameranı çiynimdən asıb, yaxşı foto axtarsınca düşmüşəm. Mənim çəkdiklərim əsasən xəbər sahəsinə uyğundur. Daha dəqiq desək, yazılan cümlələrin görünən halıdır... Amma "danışan" fotolarım da olur. Fotoya baxdıqda, o sənə hər şeyi "deyir". Çarəsiz insanın üz cizgilərini, ağlayan gözlərin qəmini, ehtiyac içində yaşayan şəxsin əzablarını, sevincdən var gücü ilə gülümsəyən uşağın üzündəki qəmzələri göstərən fotolar, məncə, ən qiymətli fotolardır".

**M.Türkmən dedi ki, bu zamana qədər heç bir fotosunu satmayıb. Həmkarımız çəkdiyi zəhməti satdığını vurğuladı:** "Fotolar isə mənimdir. Hər biri yaxşı da olsa, pis də olsa, mənim əl işimdir. Deməli, onu satmaq olmaz. Satsam belə qiymətini mən verə bilmərəm. Fotonun qiyməti, onu almaq istəyən şəxsin, fotoya verəcəyi dəyərdən asılıdır. Yüksək dəyər verərsə, deməli, yaxşı alıcıdır, az dəyər verərsə, pis alıcıdır. Başqa heç nə..."

❑ **Sevinc TELMANQIZI**

## Polad Bülbüloğlu "Şərəf" ordeni ilə təltif edildi

**Azərbaycan prezidenti İlham Əliyev Polad Bülbüloğlunun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

P.Bülbüloğlu Azərbaycanın mədəni və ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif edilib. Qeyd edək ki, P.Bülbüloğlu ölkəmizin Rusiyadakı səfiridir.

## Ermənistanda indi də taksi sürücüləri etiraza qalxır

**İrəvanda özəl taksilərin sürücüləri fevralın 5-də hökumət binasının qarşısında etiraz aksiyası keçirmək niyyətindədirlər.**

Bu barədə "Trend" "Armenia Today" saytına istinadən xəbər verir.

Taksi sürücülərinin narazılığına səbəb lisenziyalaşdırma qaydalarındakı dəyişikliklər olub. Belə ki, həmin dəyişikliklərə görə, sarı rəngli dövlət nömrələri yenidən ağ rəngli nömrələrlə əvəz edilir, sürücülər isə hər ay 12 min dram ödəməli olacaqlar.

Sürücülərin sözlərinə görə, yaranmış şəraitdə bu məbləği ödəmək sadəcə olaraq mümkün deyil və həmin qərarın qüvvəyə minməsi dayandırılmalıdır.

# Deputatın "dana" sözünə yol polisindən cavab gəldi



**"Hər bir yol patrul xidməti əməkdaşı gün ərzində üç dəfə təlimatlandırılır". Bunu azvision.az-a açıqlamasında Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov deyib.**

V.Əsədov Milli Məclisin iclasında Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovun yol polisi ilə bağlı səsləndirdiyi ittihamlara cavab verib: "Cəmiyyətdə elə insanlar var ki, onları hər kəs tanıyır. Bu baxımdan polis əməkdaşları da həmin şəxsləri tanımalıdır".

DYP rəsmisinin sözlərinə görə, hansısa polis əməkdaşlarının hafizəsində nöqsanlar ola bilər.

Xatırladaq ki, Milli Məclisin ötən gün keçirilən iclasında "Yol hərəkəti haqqında" Qanuna dəyişikliklərin müzakirəsi zamanı Milli Məclisin üzvü Eldar İbrahimov Dövlət Yol Polisi (DYP) əməkdaşlarının bəzi hallarda hazırlıqsız olmaları barədə qeydlərini dilə gətirib.

**Millət vəkili bildirib ki, DYP əməkdaşları qanuna müvafiq olaraq vətəndaşlar, həmçinin dövlət məmurları və millət vəkilləri ilə davranışlarında diqqətli olmalı, qanunun tələblərinə əməl etməlidirlər:** "Onlar bəzi hallarda vətəndaşla kobud danışırlar. Polis serjantlarını işə götürəndə təbliğat işi aparılmalı, davranış qaydaları öyrədilməlidir. Hətta məni də saxlayıblar. Milli Məclisin deputatlıq kitabçasını da göstərmişəm. Deyirəm oxuyun ki, orada nə yazılıb. Mənə deyir ki, bu kitabçadan hamıda var da. Deyirəm, a kişi, bu kitabçadan 125 deputatda var. Oxudun, başa düşmədin? Bu "dana" hardan gəlib? Bunları işə götürəndə təbliğat işi də aparılmalıdır".

## "Gülən ölüb?"

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın müavini Bülənt Arınç mətbuat nümayəndələrinin suallarını cavablandırıb.**

Virtualaz.org saytı xəbər verir ki, B.Arınça verilən suallardan biri də "Gülən camaatı"nın lideri Fətullah Gülənin ölüb-ölməməsi haqda olub.

B.Arınç bu suala təəccübünü gizlətməyib. Ərdoğanın müavini suala belə cavab verib: "Məni çox təəccübləndirdiniz. Əgər aprelin 1-i olsaydı, zarafat etdiyinizi düşünərdim. Bunu ilk dəfə eşidirəm və ciddi olduğuna inanmıram".

B.Arınç bu xəbərin hansı mətbuat orqanında çıxdığını soruşub. Jurnalist "Egenin səsi" qəzetində bu haqda xəbərin yer aldığını deyəndən sonra B.Arınç bu xəbərin ciddi olmadığını qətiyyətlə bildirib.

"Bu xəbərin dəqiq olmadığına əmin oldum. Allahım, sən bizim ağlımızı qoru" - deyə B.Arınç cavab verib.

## Özbək müxalifəti prezidenti komaya "saldı"

**Özbəkistan müxalifətindəki mənbələr prezident İslam Kərimovun komaya düşdüyünü xəbər verir.**

Virtualaz.org saytı xəbər verir ki, bu barədə məlumatı mühacirətdəki "Özbəkistan xalq Hərəkatı"na istinadən bir neçə regional KİV yayıb.

Bildirilir ki, "Özbəkistan Xalq Hərəkatı"nın Daşkənddəki mənbələri dövlət başçısının səhhətinin yanvarın 28-də kəskin pisləşdiyini xəbər veriblər.

"Təxminən axşam saat 20:30-da "Kuksaray" rezidensiyasındakı şam yeməyi zamanı prezident İslam Kərimov huşunu itirib. Rezidensiyanın tibbi personalı dövlət başçısına təcili tibbi yardım göstərib. Bundan əlavə, Durmenə həkim-mütəxəssislər çağırılıb. Ancaq bütün səylərə baxmayaraq prezidentin huşunu özünə qaytarmaq mümkün olmayıb. Kərimov yanvarın 29-da da koma vəziyyətində olub"- deyə mənbə bildirib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01,**

## SOCAR qazın qiymətini artırdı




**"SOCAR Georgia" şirkəti martın 1-dən çörəkbişirmə kombinatları istisna olmaqla, bütün kommersiya şirkətləri üçün təbii qazın qiymətini 15 tetri artıracaq. Bu barədə "SOCAR Georgia" özü məlumat yayıb. Məlumatda deyilir ki, buna səbəb Gürcüstanın milli valyutası - larinin kursunun aşağı düşməsi olub.**

Martın 1-dən bütün kommersiya şirkətləri (çörəkbişirmə şirkətləri istisna olmaqla) istifadə etdikləri təbii qazın 1 kubmetri üçün ƏDV də daxil olmaqla, 90 tetri ödəyəcəklər. Bu gün isə şirkətlər işlətdikləri qazın 1 kubmetri üçün 75 tetri ödəyirlər (ANS PRESS).

## Separatçılar Debaltsevo istiqamətində yüzlərlə döyüşçüsünü itirib

**Ukraynanın Donetsk vilayətinin Debaltsevo şəhəri istiqamətində gedən döyüşlərdə separatçı qüvvələrin yüzlərlə döyüşçüsü məhv edilib.**

APA-nın "liga.net" saytına istinadən verdiyi məlumata görə, bunu Ukrayna Antiterror Əməliyyatı Qərargahının sözçüsü Andrey Lısenko deyib.

A. Lısenko bildirib ki, Donetsk şəhəri və ətraf yaşayış məntəqələrinin morq və xəstəxanaları separatçıların meyitləri, yaralıları ilə doludur və artıq dərman ləvazimatlar qıtlığı yaranıb: "Debaltsevo istiqamətində hücum əməliyyatları üçün 3 mindən çox silahlı separatçı və Rusiya hərbçisi, 30-dan çox tank, 80-ə yaxın zirehli texnika, böyük miqdarda artilleriya, o cümlədən özüyeriyən artilleriya sistemləri cəlb olunub. Bütün həftə döyüşlər getdiyi üçün bizim onların itkilərini saymaq imkanımız olmayıb. Lakin bir neçə mənbədən aldığımız məlumatlara görə, yüzlərlə silahlı öldürülüb, bir o qədər də yaralanıb".

Qeyd edək ki, Debaltsevo şəhəri Donetsk şəhərindən 74 km aralıda yerləşən strateji əhəmiyyətli dəmir yolu qovşağıdır.

## Məmməd Zeynalov Müsavatdan getdi

**Müsavat Partiyasının tanınmış simalarından daha bir nəfər partiya sıralarını tərk edib.**

APA-nın xəbərinə görə, Əbülfəz Elçibəy hakimiyyəti dönəmində ədliyyə nazirinin müavini olmuş Məmməd Zeynalov özünün facebook səhifəsində Müsavatdan istefa verdiyi barədə açıqlama yayıb.

O, Müsavat Partiyasının apardığı siyasətə etiraz əlaməti olaraq Müsavat Partiyası sıralarından istefa verdiyini bildirib: "Bu gündən etibarən siyasətlə məşğul olmayacağımı bəyan edirəm. Arqumentimi əsaslandırmaq üçün İsa Qəmbər və Mustafa Hacıbəylidən başqa istənilən partiya funksioneri ilə debata hazıram".

**M. Zeynalov istefa verməsinə Müsavat Partiyasının sonuncu qurultayının nəticələrinin də təsir etdiyini vurğulayıb:** "Arif Hacılı tək deyil, orda başqa adamlar da var. Yəni mən məhz Müsavat rəhbərliyinin apardığı siyasətə görə belə bir addım atmışam".

## Dərslər mayın 31-dən də tez başa çatacaq

**Bu il Azərbaycan məktəblərində dərslər vaxtından əvvəl başa çatacaq.**

Hər il olduğu kimi, bu il məktəblərdə dərslər mayın 31-də deyil, daha tez zamanda yekunlaşacaq. Belə ki, Azərbaycan məktəblərində "Son zəng" tədbirinin keçiriləcəyi vaxtın dəyişdirilməsi nəzərdə tutulub.

Bu il mayın 31-i bazar gününə düşdüyündən "Son zəng" tədbirlərinin vaxtında dəyişiklik ediləcək. Azərbaycanda tədris həftəsi 5 günlük olan orta məktəblərdə "Son zəng"in mayın 29-da, tədris həftəsi 6 günlük olan orta məktəblərdə isə mayın 30-da çalınacağı ehtimalı var.

Qeyd edək ki, indiyə qədər ümumtəhsil məktəbində dərs məşğələləri bir qayda olaraq sentyabrın 15-də başlayıb və mayın 31-də başa çatıb. Nazirlər Kabinetinin Təhsil Nazirliyinin təklifini nəzərə alaraq, dərs ilinin artırılması ilə bağlı "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nə etdiyi dəyişikliyə əsasən, gələn tədris ilində ümumtəhsil məktəblərində dərs məşğələləri sentyabrın 15-də başlayıb, iyunun 14-də başa çatacaq. Dərs ili iki yarımilə bölünəcək, birinci yarımil 15 sentyabr-26 yanvar, ikinci yarımil 1 fevral-14 iyun tarixlərini əhatə edəcək. Dərs ili ərzində tətillər 5 gün payız tətili (16-20 noyabr), 5 gün qış tətili (27-31 yanvar) və ibtidai siniflər üçün 5 günlük (1-5 may) əlavə yaz tətili müəyyən ediləcək (APA).

YENİ MÜSAVAT
N 25 (6053) 4 fevral 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Nemesin son sözü

**Bu əhvalatı mənə mərhum İsaxan Aşurov danışmışdı. Hadisə onların kəndində baş verib. İkinci Dünya müharibəsindən əvvəlki kolxoz dövrüymüş. O zamanlar bizim rayonlarda almanlar da yaşayırmış. Bir gün kolxozun sədri qonşu kənddən olan Hans adlı bir almanı və Əmrastan adlı bir türkü kənddən xeyli aralı bir sahəyə işə göndərir. Hans alman punktuallığına uyğun olaraq, günorta saat 1-də Əmrastana deyir ki, nahar vaxtıdır, işi dayandır, çörəyimizi yeyək. Səni də yeməyə dəvət edirəm. Əmirastan nəinki Hansla, ümumiyyətlə, ilk dəfəymiş ki, bir almanla çöllük keçirirmiş və buna görə də alman punktuallığının və naharının nə olduğunu bilmirmiş. Ona görə də mentalitetimizə uyğun olaraq, düşünmədən deyir ki, sağ ol, hələ acmamışam, əlimdəki 5-10 dəqiqəlik işi qurtarıb sonra nahar edəcəm. Çox güman, fikirləşir ki, heybəsindəki bir dilim pendiri, bir baş soğanı və bir somu parasını təkbaşına rahatca yeyə, daha bu nemesi niyə boğazına ortaq etsin. Hans Əmrastanın "yox" cavabından sonra özünə süfrə açmağa başlayır. Əmirastan gözünün ucuyla baxır ki, nemes torbasından pilə kimi yumşaq ağ çörək, soyutma toyuq, kolbasa, pendir, turşu, çaxır və s. çıxarıb yerə sərdiyi süfrənin üstünə düzür. O saat başa düşür ki, neməsə "yox" cavabı verməkdə çox zırramalıq edib. Düşünür ki, yəqin yeməyə başlayanda nemes bir də dəvət eləyər, onda fürsəti düzgün dəyərləndirər. Hans da ki, nemes oğlu nemesdir, başlayır iştahla yemeyini yeməyə. Əmirastan ha çalışır özünü toxtaq aparsın, baxır ki, alınmır, dözmək çox çətindir, üstəlik də bu cantarax nemes bu qədər neməti yeyib qurtaracaq, amma bir də onu dəvət etməyəcək. Odur ki, üzünü Hansa tutub deyir: " A nemes, bayaq sən mənə nəsə deyirdin".**

Həşəmətli iqtidarımız Almaniyaya səfərə getmişdi. İndi bundan çox danışırlar. Bəziləri deyir ki, nemeslər neçə vaxtdır ki, bizimlə görüşmək istəyirmiş. Biz də deyirmişik ki, vaxtımız yoxdur, nə vaxt boşalarıq, başımız açılar, sizə də vaxt ayırarıq. Bəziləri isə deyirlər ki, xanım Angela Merkel özü bizim iqtidara əmr edərək yanına çağırıb, ona bir-iki məsləhət verib. Bildiyiniz kimi, bizim iqtidarın nədən xoşu gəlsə də, məsləhətdən heç xoşu gəlməz. Məsləhət verdinmi, dərhal əsəbləşir, adamın üzünə qayıdır və deyir ki, bu məsləhətlər mənə yox, sənin özünə aiddir. Görünür, elə Angela xala da *(üslub Zamin Hacınındır)* bu cür cavab alıb. Federal kansler olanda nə olar, Hans nemes oğlu nemes olan kimi o da nemes qızı nemesdir. Punktuallığı da, bir sözü iki dəfə deməməyi də öz yerində. Bir də baxdın, bir az keçəcək, iqtidarımız Angela xalanın sözünü yerə salmaqda Əmrastan kişidən betər səhv etdiyi başa düşəcək. Ondan sonra çarə bircə ona qalır ki, girəvələyib Angela xalanı bir toplantıda yaxalayıb soruşasan ki, a nemes, sən o dəfə mənə nəsə deyirdin...

Düzü, İsaxan bəyin bu maraqlı söhbətinin sonluğu dəqiq yadımda qalmayıb. Zənnim məni aldatmırsa, o vaxt Hans Əmirastanın sualına heç bir cavab verməyib, eləcə başını ona tərəf çevirərək, kinayə ilə baxıb və indicə udduğu soyutma toyuq tikəsinin üstündən bir stəkan qırmızı çaxırını içib.

**P.S.** *Eşitdiyimə görə, Angela Merkel də digər kafir avropalı qadınlar kimi çaxır içməyi çox xoşlayır.*

# İntiqam Əliyevə ittiham elan olundu

## "Həbsxana həyatı yaşamaq mənim üçün şərəfdir"



**Fevralın 3-də Bakı Ağır Cinayətlər Məhkəməsində Hüquq Maarifçiliyi Cəmiyyətinin (HMC) sədri İntiqam Əliyevin məhkəmə prosesi davam etdirildi. Bu dəfə proses İntiqam Əliyevin vəkillərinin verdiyi vəsatət əsasında daha böyük zalda keçirildi.**

Hakim Rasim Sadıqov müdafiə tərəfinin İntiqam Əliyevin proses zamanı dəmir barmaqlıqlar arasından çıxarılıb, müdafiəçilərinin yanında əyləşdirilməsi ilə bağlı vəsatəti təmin etdi.

**Bir neçə dəqiqə sonra İntiqam Əliyevin səhhəti qəfil pisləşdi. Hakim İ.Əliyevin səhhəti ilə bağlı sualına hüquq müdafiəçisi belə cavab verdi:** "Siz mənim qeydimə qalırsız? Keçən prosesdə dedim ki, məni sözün əsl mənasında tabutda gətirirlər. Amma bir iş görülmədi. Sizə sual verirəm. Niyə? Bu sizin səlahiyyətinizdə olan işdir. Siz isə susmağa üstünlük verirsiniz. Vəkillərimlə məsləhətləşməm üçün əlavə otaq istəyirəm".

Rasim Sadiqov HMC rəhbərinin istəyinə "əlavə otağımız yoxdur" cavabını verərək, 10 dəqiqəlik fasilə elan etdi.

Fasilədən sonra proses davam etdi. İntiqam Əliyev özünü normal hiss etdiyini, məhkəmənin davam etdirilməsini istədi.

Müdafiə tərəfinin vəkillərinin ilk vəsatəti həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması barədə oldu.

**İntiqam Əliyev verilən vəsatətə münasibət bildirdi:** "İstintaqdan yayınmaq fikrim olsaydı, ümumiyyətlə, ölkəyə qayıtmazdım. Həbs olunacağımı bilirdim. Müstəntiq Sənan Paşayev həbsimdən bir neçə gün öncə dindirmə zamanı açıq şəkildə demişdi. Hazırda həbsdə olmamdan peşman deyiləm. Leyla Yunus, Rəsul Cəfərov, Xədicə İsmayıl, Seymur Həzi, Tofiq Yaqublu və başqaları ilə bir yerdə həbsxana həyatı yaşamaq mənim üçün şərəfdir. Avropa Məhkəməsinin qərarında göstərilir ki, dəlil-sübutlar olmadan təqsirləndirilən şəxsi həbs etmək sırf qanunsuzluqdur. İndi də heç bir sübut yoxdur. Həbsimi qanunsuz hesab edirəm. Necə qərar verəcəyiniz məlumdur. Əslində vəsatətlər indiki vəziyyətdə kağız üzərində qalır. Ev dustaqlığına buraxılmamağıma əsas arqumentlərdən biri kimi, adı keçən şəxslərə təzyiq edə biləcəyim göstərilir. Çox gülməlidir. Həbs edilmədiyim zamanda belə heç kəsə zəng etməmişəm. Əslində prokurorluq insanlara təzyiq edir. Necə ki, bu gün əleyhimə ifadə verən, üzümə duran şəxslərə təzyiq olunur. Milyonlarla pulu mənimsəyən şəxslər ev dustaqlığına buraxılır. Amma indiyə qədər heç bir siyasi məhbus ev dustaqlığına buraxılmayıb. Bütün bunlar məhkəmələrin sifarişli olmasına dəlalət edir. Mənə işgəncə vermək üçün tabut boyda yerdə məhkəməyə gətirirlər. Bizi tabutda daşımaq bizi sındıra bilməz".



Bundan sonra məhkəmə müşavirəyə yollandı. Yarım saatlıq müşavirədən sonra vəsatətin təmin edilmədiyi elan olundu.

**Vəkil Cavad Cavadov müdafiə etdiyi şəxsin səhhəti ilə bağlı vəsatət qaldırdı:** "Bu sənədlərdə tibbi arayışlar da var. İntiqam müəllimin səhhəti ilə bağlı. Onun hazırda bayaq deyildiyi kimi, "tabut"da prosesə gətirilməsi səhhətinə daha ciddi təsir edir. Nəticədə məhz buna görə bayaq onun səhhəti pisləşdi".

**İntiqam Əliyev təkcə ona qarşı yox, bütün məhbuslara qarşı bu cür qeyri-insani rəftardan istifadə edildiyindən danışdı:** "Bu, insan şəxsiyyətinin alçaldılmasıdır. Təkcə özüm üçün yox, bütün məhbuslara görə bu problemin üzərində dayanıram. Artıq insanlara hörmət etməyi bacarın. Təcridxanada elə bir vəziyyət yaranıb ki, yaxınlarımıza belə məktub yaza bilmirik. Soyundurulub, ayaqdan-başa bütün yoxlanılırıq. Bunun qarşısı alınacaqmı? Artıq vəkillərimiz də bizim kimi ciddi yoxlanılır. Normal ünsiyyət qura bilmirik. Bundan sonra hansı üzlə insan hüquqlarından danışırsınız? Bizə yol göstərin. Necə yaxınlarımızla, vəkillərimizlə əlaqə saxlayaq?"

Dövlət ittihamçısı verilən vəsatətlərə etirazını bildirdi. Yerində müşavirə keçirən hakim vəsatətlə bağlı Penitensiar Xidmətə müraciət olunacağı barədə məlumat verdi.

**Daha sonra müdafiə tərəfinin prosesin audo, videoyazısının aparılması haqqında vəsatətinə prokuror etiraz etdi. HMC-nin ofisindən sənədlərin müsadirə olunması barədə vəsatət müzakirə olunanda İntiqam Əliyev yenə söz aldı:** "Ofis və evimdə axtarışlar aparılan zaman aidiyyəti olmayan sənədlər götürüldü. Təşkilatın möhürü götürülüb. Hələ geri qaytarılmayıb. Heç kəsə qarşı düşmənçiliyim yoxdur. Əleyhimə ifadə verən Gülşən və Əfsanə bacıları daxil olmaqla. Bilirəm ki, bu insanlar təzyiq altında ifadə veriblər. Özümü qəhrəman saymıram. Həbsxanada yatmaq qəhrəmanlıq deyil. Mən götürülmüş sənədlərin, təşkilatın möhürünün geri qaytarılmasını, ofisin qapılarının açılmasını tələb edirəm".

Müdafiə tərəfi Gülşən Orucovanın bacısı Əfsanənin hesabına köçürdüyü 119 min manatın ödəniş qəbzindəki imzaların İntiqam Əliyevə məxsus olmadığını bildirdi.

**Nahar fasiləsindən sonra da müdafiə tərəfi HMC-də uzun müddət mühasib işləmiş Gülşən Orucova və bacısı Əfsanə Orucovanın bank hesablarının araşdırılması barədə vəsatət verdi. İntiqam Əliyev Gülşən Orucovanın təkcə onun təşkilatında yox, 7-8 tanınmış QHT-də mühasib işlədiyini bildirdi:** "Bütün bunlar onu göstərir ki, Gülşən Orucovanın bacısının hesabına köçürdüyü pullar başqa mənbələrdən gələ bilər. Bunlar araşdırılmalıdır. Qoy məhkəmədə gəlib, bir daha üzümə dursunlar. Amma hər şey ortada olsun. Məni onlar yox, bu zaldakı insanlar maraqlandırır. Onların gözlərinin içinə düz baxmaq üçün hər şeyin sübutlarla ortaya qoyulmasını istəyirəm".

"Unibank"ın Səbayel filialının işçilərinin şahid qismində məhkəməyə dəvət olunmaları barədə vəsatət baxılmamış saxlanıldı.

**Gülşən Orucovanın nümayəndəsi hüquqlarını müdafiə etdiyi şəxsin ifadəsinin qapalı iclasda alınmasını xahiş etdi. Bu isə zaldakıların etirazına səbəb oldu. İntiqam Əliyev də açıq məhkəmə təklif etdi:** "Gizlədiləsi heç nə yoxdur. Cəmiyyət hər şeyi görməlidir. Bu vəsatət təmin oluna bilməz". Qısa müşavirədən sonra vəsatət rədd edildi.

Ardınca hakim ittiham aktının elan olunması vaxtının çatdığını bildirdi və şahidlərin zalı tərk etmələrini tələb etdi.

**Dövlət ittihamçısı ittiham aktını elan etdi. İntiqam Əliyev ittiham aktı ilə özünü təqsirli bilmədiyini dedi:** "İttihamla razı deyiləm. Faktlar olmadan belə ittihamın hazırlanması sadəcə gülüş doğurur. Özümü təqsirli bilmirəm".

Hüquq müdafiəçisinin özü də indiki vəziyyətdə ifadə verməyəcəyini bildirdi. Hakimlərin müşavirəsindən sonra Rasim Sadıqov prosesin zərərçəkmişlərin, şahidlərin və sonda təqsirləndirilən şəxsin ifadəsi ardıcıllığı ilə aparılacağını elan etdi.

**Proses fevralın 17-də davam etdiriləcək.**

❑ **Cavanşir ABBASLI**
**Foto müəllifindir**

# Vəkil Lamiyə Quliyevaya bəraət verilməsi xəbərindən danışdı

## Fəxrəddin Mehdiyev müvəkkilini azadlığa qovuşduracaq qərarın verilmədiyini deyib

**Məhkum Lamiyə Quliyevanın məhbəsdə ana olması xəbəri yayılan gündən 2 həftədən artıq vaxt keçir. Fevralın 3-də azvision.az-ın "Lamiyə Quliyevaya bəraət verildi" başlığı hətta məhkum qadının başına gətirilən müsibətləri görməzdən gələn saytların da manşeti oldu. Lamiyə Quliyevanın vəkili Fəxrəddin Mehdiyev isə "Yeni Müsavat"a deyib ki, xəbər köhnədir:**

"Lamiyə Quliyevaya ümumilikdə 3 dəfə ittiham irəli sürülüb. 2003-cü ildə onu Cinayət Məcəlləsinin 120-ci - qəsdən adam öldürmə maddəsi ilə ittiham edib 10 müddətinə azadlıqdan məhrum ediblər. 2-ci dəfə, 2012-ci ildə Lamiyə Quliyevaya Cinayət Məcəlləsinin 317-ci - cəzaçəkmə müəssisəsinin və ya istintaq təcridxanasının normal fəaliyyətini pozma - maddəsi ilə ittiham elan olunub. Bu maddə ilə məhkəmə qarşısına çıxarılıb və 5 il 6 ay əvvəlki hökmlə təyin olunmuş cəzanın üstünə gəlinib. Yəni Lamiyə Quliyevanın cəzası 15 il 6 aya çatdırılıb. Bundan 1 il sonra, 2013-cü ildə Lamiyə Quliyevaya növbəti - 3-cü dəfə ittiham verilib. Guya Lamiyə Quliyeva digər məhkumdan hədə-qorxu ilə pul tələb edib. O vaxt mənimlə Xətai Rayon Məhkəməsində Lamiyənin hüquqlarını müdafiə etmək üçün müqavilə bağlandı. Cinayət Məcəlləsinin 182-ci -



Lamiyə Quliyeva

hədə-qorxu ilə tələb etmə maddəsi ilə cinayət işi başlamışdılar. İttihamın əsasını bir qadın məhkumun yalnız ifadəsi təşkil edirdi. Guya Lamiyə hədə-qorxu ilə ondan pul tələb edib. Əsassız, qondarma ittiham idi. İşə Xətai Rayon Məhkəməsində hakim İbrahim İbrahimov baxdı və bəraətverici əsaslarla hökm verdi. Lakin prokurorluq protest verdi, iş Bakı Apelyasiya Məhkəməsinə göndərildi. Hakim Sahibxan Mirzəyev həmin hökmü ləğv edib Lamiyə Quliyevanın cəzasını 6 il 6 ay artırdı. Ali Məhkəmədə hakim Hafiz Nəsibov Bakı Apelyasiya Məhkəməsinin qərarını ləğv edib birinci məhkəmə instansiyasının qərarını qüvvədə saxladı. Bəli, bu işlə Lamiyə Quliyevaya bəraət ala bildik. Amma bu bəraət hökmü onun azadlığa çıxmasına gətirib çıxarmadı".

Həbs edilərkən L.Quliyevanın nişanlısı olmuş, sonradan isə məhbəsdə digər qadınla ailə həyatı quran Vüqar Əliyevin vəkili Adəm Məmmədov hər 2 şəxsin azad edilməli olduğunu deyib.

Vəkil müvəkkili V.Əliyevlə ilə görüşmək üçün Penitensiar Xidmətə müraciət etdiyini, lakin müraciətinin cavabsız buraxıldığını deyib.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Mühacirə "yox" deyən ölkənin mühacirləri

Xalid KAZIMLI

**Avropa ölkələrində yaşayan dostlar, xüsusilə də əli qələm tutan, yazı-pozusu, müşahidə qabiliyyəti, analitik təfəkkürü olan insanlar belə bir müşahidələrini bölüşürlər: bu cəmiyyətə qaynayıb-qarışa bildinsə, artıq səndən hansı millətdən olduğunu, haradan gəldiyini soruşmazlar.**

Çətini qaynayıb-qarışmaq, onlardan biri olduğunu göstərə bilməkdir. Deyirlər, artıq bir isveçli üçün adamın fin, norveçli, alman, fransız, çex, polyak, latış, eston olmasının fərqi yoxdur, dövlət dilini bilirsə, işində vicdanla çalışırsa, onun etnik mənsubiyyətinin fərqinə varmazlar.

Ancaq bir alman və holland üçün adamın əfqan, kürd, pakistanlı, hind, iranlı, suriyalı, ərəb olmasının fərqi var. Çünki şərqlilər yerli cəmiyyətə hələm-hələm qaynayıb-qarışa bilmirlər. Bundan daha pisi odur ki, onlar bunu istəmirlər də. Avropanın ortasında öz icmalarında, muxtar cəmiyyətlərində yaşayırlar və elə bilirlər ki, bu yolla xoşbəxt ola bilərlər.

Norveç, İsveç, Hollandiya, Finlandiya, Danimarka, İsveçrə kimi ölkələr artıq neçə on illərdir etnik ayrı-seçkiliklər etmədən, onlara sığınmaq istəyən üçüncü dünya ölkələrindən gələnlərə qucaq açaraq, sözün əsl mənasında cənnət guşəsi əmələ gətiriblər.

Son illərdə isə bu ölkələr, eləcə də Fransa, İngiltərə, Almaniya, Avstriya, İtaliya kimi ölkələr emiqrasiya siyasətlərinə yenidən baxmağa, bəzi məhdudlaşdırıcı tədbirlər həyata keçirməyə məcburdurlar ki, yerli əhali şərqdən, cənubdan gedən yadelli qaçqınların ayağı altında qalmasın. Şərqli mühacirlərə qarşı PEGİDA kimi təşkilatlar yaranıb böyüməkdədir.

Maraqlıdır ki, avropalıların bu sayaq məhdudlaşdırıcı tədbirləri bir çox ölkələrdə "Avropanın müsəlmanlaşmasının qarşısını almaq istəyirlər" kimi hiddətli reaksiyalar doğurur. Bu görə Avropa dövlətlərini sərt şəkildə qınayanlar var.

Sanki şərq ölkələrindən gedənlərin Avropanı müsəlmanlaşdırmaq kimi eksklüziv bir hüquqları var, indi onların bu hüququ məhdudlaşdırılır və Avropa ölkələri belə edərkən antibəşəri addımlar atırlar.

Bir özümüzə də baxaq. Bir ara Çin Xalq Respublikasından, Pakistandan gəlib ölkəmizdə çalışan şəxslər küçələrdə, ticarət mərkəzlərində addımbaşı qarşımıza çıxırdı. Onlar o qədər çoxalmışdılar ki, bu mövzu mediaya çıxdı. Bu barədə reportajlar yazıldı, məsələ bir qədər ictimailəşdi, cəmiyyətdə narahatlıq doğurdu, aidiyyatı qurumların görməli olduğu işlər sadalandı.

Çox keçmədən Miqrasiya Xidməti tədbirlər görməyə başladı. Hər ay, bəzən hər həftə bu cür xəbərlər gəlirdi: "Ölkəmizdə qanunsuz işləyən daha 530 *(1240, 346, 478 və s.)* qanunsuz miqrant deportasiya edilib".

Hiss olunurdu ki, Miqrasiya Xidməti təkcə deportasiya ilə məşğul olmur, həm də ölkəyə daxil olmaq istəyən miqrantların qarşısını alır, onların burada qalıb barına bilməməsi üçün tədbirlər görür.

Ölkənin siyasi rəhbərliyi də çox nadir, istisna hallarda hansısa miqranta, zülmdən, repressiyadan, ölümdən qaçıb gələn əcnəbiyə siyasi sığınacaq verirdi. Daha çox hallarda isə onları üçüncü ölkəyə yola salırlar.

Beləcə, hazırda ölkəmizdə qanuni və ya qanunsuz miqrantların sayı xeyli azalıb, 5 il əvvəlkindən azı beş dəfə fərqli saydadırlar.

Biz adicə Gürcüstandan gəlib burada çörəkpulu qazanan soydaşlarımızı da əcnəbi gözündə görür, bir çinliyə, pakistanlıya tətbiq etdiyimiz qanuni müddəaları onlara da tətbiq edir, eyni tələbləri irəli sürürük.

Uzun sözün qısası, Azərbaycan artıq nə əmək miqrantları, nə də siyasi sığınacaq uman mühacirlər üçün cənnət guşəsi deyil. Burada onlara çörək, dolanışıq, yuva yoxdur.

Ancaq azərbaycanlılar özləri bir yanı hüdudsuz Rusiya, o biri başı Kanada olmaqla, dünyanın 50-yə yaxın ölkəsinə mühacirət edə, oralarda özlərinə gün-güzəran düzəldə bilərlər və bilirlər.

Biz hələ öz aramızda rayon, mahal, tayfa söhbəti aparırıq. Burdan-bura balaca bir ölkəni idarə edərkən mahallar, rayonlar, hətta kəndlər arasında ayrı-seçkilik edirik. Sonra da yüz bir millətin təmsilçilərini, üç dünyəvi dinə, əlli cür məzhəbə qulluq edənləri bir arada tutmağı bacaran Avropanı bəyənmirik.

# Hakimiyyət seçki komissiyalarının dəyişdirilməyəcəyini bəyan etdi

**Seçki Məcəlləsinə hər hansı prinsipial dəyişikliyə ehtiyac olmasa da, prosedur dəyişikliklərin olması istisna deyil. Bunu Milli Məclisin sədr müavini Bahar Muradova deyib.**

Onun sözlərinə görə, YAP hesab edir ki, Seçki Məcəlləsinin bütün müddəaları bugünkü Azərbaycan cəmiyyətinin tələblərinə uyğundur və hansısa ciddi dəyişikliyə ehtiyac görmür: "Xüsusən də burada girov qoymaqla namizədin qeydiyyata alınması məsələsi. Əksinə, bu, geriyə doğru addımdır və konyuktur hərəkətlərə yol açır. Yəni arxasında gücü və elektoratı olmayan şəxs bu metoddan istifadə edir və cəmiyyəti düzgün olmayan istiqamətə yönəldir. Odur ki, bu müddəanın dəyişikliyinə heç bir ehtiyac yoxdur. Seçki komissiyalarının tərkibindəki dəyişikliyə gəldikdə isə onu deyə bilərəm ki, seçki komissiyalarının tərkibinin formalaşması formatı çox düzgündür və cəmiyyətin reallığına uyğundur. Bu format cəmiyyətin reallığını əks etdirir".

B.Muradaova onu da əlavə edib ki, odur ki seçki qanunvericiliyində hansısa ciddi dəyişiklik olmayacaq.

Qeyd edək ki, Azərbaycan müxalifətinin illərdir əsas tələblərindən biri Seçki Məcəlləsində ciddi dəyişikliklər edilməsi, seçki komissiyalarının paritet əsasda formalaşmasıdır. Hakimiyyət təmsilçiləri ara-sıra açıqlamalarında nə vaxtsa bu cür dəyişikliklərə gediləcəyinin mümkünlüyündən danışırdılar. Bahar Muradovanın Milli Məclisin son iclasında dediklərindən belə görünür ki, hakimiyyət ən azı bu il Seçki Məcəlləsində ciddi dəyişiklik etmək fikrində deyil. **Müsavat Partiyasının başqanı Arif Hacılı** bildirdi ki, hakimiyyətdən seçki islahatlarının tələb olunması tamamilə təbiidir. Çünki demokratik cəmiyyət quruculuğu ilk növbədə demokratik seçkilərin keçirilməsi ilə mümkündür. Azərbaycanda fəaliyyət göstərən demokratik qüvvələr bu amili nəzərə alaraq uzun illərdir ki, seçki islahatlarının aparılması uğrunda mübarizə aparır. Ancaq Azərbaycan hakimiyyətinin bu məsələlərə münasibəti tamamilə fərqlidir. Bahar Muradovanın fikirləri də bunu göstərir: "Azad və ədalətli seçkilərin keçirilməməsi arzusunda, istəyində olduğu üçün hakimiyyət ölkədə nəinki seçki islahatları aparmır, əksinə, seçki qanunvericiliyi daim mürtəceləşdirilir. Hakimiyyət nümayəndələrinin, xüsusilə Yeni Azərbaycan Partiyası rəhbərliyinə daxil olan şəxslərin zaman-zaman proporsional seçki sisteminin bərpası ilə bağlı fikirləri səslənir. YAP nümayəndələrinin bu təklifi səsləndirməsi heç də onların seçki qanunvericiliyində islahatların aparılması istəyi ilə bağlı deyil. Sadəcə olaraq, onlar hesab edir ki, əgər proporsional seçki sistemi bərpa olunsa, partiya strukturlarında çalışan, partiya strukturlarına rəhbərlik edən şəxslərin siyasi proseslərə təsir imkanları daha da arta bilər. Bahar Muradova isə konkret olaraq Azərbaycan hakimiyyətinin bilavasitə mövqeyini ifadə edərək islahatların aparılmayacağını bildirir. Hesab edirəm ki, onun dedikləri hakimiyyətin siyasətini daha dəqiq əks etdirir. Çünki Bahar Muradova parlament spikerinin müavini olaraq YAP-dan çox, Azərbaycan hakimiyyətinin nümayəndəsi kimi danışır. Bu yanaşma Azərbaycan hakimiyyətinin siyasi xəttinə uyğundur. Hakimiyyət heç vaxt könüllü olaraq seçki islahatlarına getmək istəmir. Azərbaycan cəmiyyətinin, Azərbaycanda olan müxalifət qüvvələrinin isə vəzifəsi ondan ibarət olmalıdır ki, rejimi demokratik islahatlar, o cümlədən seçki qanunvericiliyində islahatlar aparmağa məcbur etsin. Bu istiqamətdə müəyyən fəaliyyət mövcuddur. Biz çalışacağıq ki, Azərbaycan cəmiyyətini fəallaşdırmaq yolu ilə ölkədə demokratik islahatların, o cümlədən seçki qanunvericiliyində islahatların aparılmasına nail olaq".

## Arif Hacılı: "Bahar Muradovanın dedikləri hakimiyyətin siyasətini daha dəqiq əks etdirir"



Arif Hacılı

**Müsavat başqanı depozit qoyulması yolu ilə deputatlığa namizədin qeydə alınması qaydasının arxasında gücü və elektoratı olmayan şəxsin, hətta bəzən dələduzların cəmiyyəti düzgün olmayan istiqamətə yönəltməsinə səbəb olduğu haqda deyilənlərə də münasibət bildirdi:** "Dələduzlar onsuz da əllərində olan maliyyə vəsaitlərindən istifadə edərək nəinki namizəd olmağa, hətta deputat olmağa da nail ola bilirlər. Depozit qoyulması yolu ilə namizədlərin qeydə alınması qaydası müxalifətdə olan nüfuzlu siyasi xadimlərin namizədliyinin qarşısını almaq məqsədilə ləğv edilib".

❑ E.SEYİDAĞA

# Qubad İbadoğlu partiyadan çıxarılacağını gözləyir

## "Bir neçə ay əvvəl partiyada ən yüksək vəzifələri təklif edənlər indi partiyadan kənarlaşdırılmağım üçün zəmin hazırlayırlar"

**"Müsavat Partiyasının Divanında guya üzürsüz səbəbdən iştirak etməməyim və buna görə mənə xəbərdarlıq olunması barədə qərarın əsası yoxdur. Əvvəlcədən də məlumat vermişdim ki, Divana dəvəti qəbul etməyimə baxmayaraq, həmin gün iclasda iştirak etmək imkanım yoxdur. Buna baxmayaraq, hiss olunur ki, əvvəlcədən nə düşünüblərsə, planlaşdırıblarsa, o əsasda qərar qəbul ediblər".**

Bunu APA-ya açıqlamasında Müsavat başqanlığına sabiq namizəd, Azərbaycan Demokratiya və Rifah Hərəkatının (ADR) Təşkilat Komitəsinin sədri Qubad İbadoğlu deyib.

**Q.İbadoğlu bildirib ki, bununla sonrakı qərarlara zəmin hazırlanır:** "Fevralın 9-dan 16-na kimi Vaşinqtonda səfərdə olacağam və Divanın iki toplantısı da həmin müddətə təsadüf edir. Təbii ki, mən səfəri təxirə salmaq niyyətində deyiləm. Qarşı tərəfin yanaşması birtərəfli və qərəzlidir. Partiyanın Qadınlar Birliyinin sədri Ellada Məmmədli ilə dünən Divanda aparılan müzakirələr də göstərdi ki, Azərbaycan Demokratiya və Rifah Hərəkatının yaradılmasının Müsavat Partiyasına heç bir aidiyyəti olmasa da, öz fəaliyyətsizliyini ört-basdır etmək istəyən, indiyə qədər ortaya bir nəticə qoya bilməyən rəhbərlik bizim məhsuldar fəaliyyətimizdən narahatdır və hədəf olaraq da hərəkatdakı fəallığımızın azaldılmasını seçib".

**Q.İbadoğlu ADR-in ictimai hərəkat olduğunu, Azərbaycan qanunvericiliyi və partiya nizamnaməsinin belə bir hərəkata qadağa qoymadığını vurğulayıb:** "Bir vaxtlar Arif Hacılı özü da daxil olmaqla, keçmiş siyasi



Qubad İbadoğlu

məhbuslar "16 Oktyabr Hərəkatı" yaratmışdılar. Eyni zamanda Müsavat Partiyasının keçmiş başqanı İsa Qəmbər də ictimai əsaslı bir təşkilatın rəhbəridir. Amma nədənsə bu barədə heç kim danışmır, amma hədəfdə ADR və onun fəaliyyətidir. Hətta Ellada Məmmədlinin qarşısına şərt qoyublar ki, ya ADR-də, ya da Müsavat Partiyasında qalmalısan. Bu, hər bir müsavatçının hüquqlarının pozulmasıdır. Çünki hər bir Azərbaycan vətəndaşı istənilən ictimai və siyasi hərəkatda birləşə bilər. Biz siyasi fəaliyyətimizi Müsavat Partiyasında davam etdiririk, bundan sonra da davam etdirmək əzmindəyik".

**Q. İbadoğlunun fikrincə, Divanın son qərarı partiya idarəçiliyində sistemsizliyin olduğunu sübut edir:** "Bir neçə ay əvvəl mənə partiyada ən yüksək vəzifələri təklif edənlər indi partiyadan kənarlaşdırılmağımla bağlı zəmin yaradırlar. Əgər Divanda qərarlar əvvəlcədən sifarişlə hazırlanmış qaydada qəbul olunursa, nizamnamə normalarına istinad yoxdursa, Divan uzun illər fəaliyyət göstərən partiya üzvlərini məhkəmə kimi mühakimə və ittiham edirsə, o qurumdan istənilən qərarı gözləmək mümkündür. Bu qərar və bunun davamı olaraq veriləcək istənilən qərar partiyanın nüfuzuna ciddi zərbə olacaq. Demokratiya uğrunda mübarizə aparan istənilən partiya, o cümlədən Müsavat Partiyası öz qərarlarında demokratik normalara, nizamnaməyə və proqram müddəalarına əsaslanmalıdır".

**Qeyd edək ki, fevralın 2-də Müsavat Partiyası Divanının toplantısında Q. İbadoğlu və E.Məmmədliyə xəbərdarlıq edilib.**

YENİ MÜSAVAT
N 25 (6053) 4 fevral 2015

## Aylardır susan YAP-çı deputat "Yeni Müsavat"a şok açıqlamalar verdi

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, YAP-çı deputat Rəbiyyət Aslanova uzun fasilədən sonra "Yeni Müsavat"a geniş müsahibə verib. Aylardır özünün və hazırda Rabitə Nazirliyində şöbə müdiri vəzifəsində çalışan oğlu Elnur Aslanovun adının nurçularla birgə hallandırılmasını sükutla qarşılayan və arabir kiçik açıqlamalarla kifayətlənən komitə sədri bu dəfə, nəhayət, israrımıza rəğmən açıq və konkret suallarımızı ətraflı cavablandırmağa razılaşıb.**



# "Nurçularla heç bir əlaqəmiz yoxdur, ola da bilməz"

## **Rəbiyyət Aslanova:** "Nə Fətullah Gülənlə, nə gülənçilərlə görüşməmişəm; nə şəkillərimiz yoxdur, nə birgə fəaliyyətimiz"

***- Rəbiyyət xanım, hesab etmirsinizmi ki, uzun müddət susmağınızın səbəbini, nəhayət, açıqlamaq zamanıdır? Nədən özünüz və oğlunuz Elnur Aslanovun nurçularla əlaqələndirilməsi barədə bu qədər söz-söhbətdən, yazılardan sonra bəraətqazandırıcı arqumentlərlə çıxış etmək əvəzinə danışmamağa üstünlük verdiniz?***

- O zaman mən və oğlum öz mövqeyimizi konkret bildirdik. Dedik ki, bu, başdan-ayağa yalan, iftira, böhtandan başqa bir şey deyil. Bu dörd ifadə həqiqəti əks etdirirdi və gerçəklik idi. Əgər bunun əksi olmuş olsaydı, mən böyük bir məsuliyyətlə bu sözü deməzdim. Xırda şeylər haqqında bəzən böyük ifadələr axtarırsan, tapırsan. Amma böyük həqiqətlər üçün yalnız sükut bəs edir. Mən bu məsələ ilə əlaqədar olaraq milli təhlükəsizlik orqanlarına müraciət etmişdim ki, tamam yoxlanılsın, bilinsin. Mən dövlətim, prezidentim, xalqım qarşısında alnıaçıq və fəaliyyətində azacıq da olsa, qara nöqtə olmayan bir insanam. Eyni mövqeni oğlumun haqqında da bildirirəm. Bundan artıq nəsə demək, özünü doğrultmaq mənim üçün tamamilə gərəksiz hesab olunurdu. Çünki bizi uzun illər tanıyan insanlar bizim kimliyimizi çox gözəl bilir. Kim özünə haqq qazandırmağa çalışırsa, o, öz-özünü ifşa edir. Mənim özümə haqq qazandırmağıma qətiyyən ehtiyac yox idi. İlk növbədə mən öz daxili əqidəmə kifayət qədər sadiq insanam. Öz mövqeyimə, düşüncələrimə, dövlətimə olan sədaqətimə böyük inamı olan və bunun heç vaxt dəyişmədiyini anlayan bir insanam. Bu baxımdan qəzetlərə çıxmaq, jurnalistlərə intervü vermək, "yox, bu, belə deyil, filan vaxt belə olub" demək, bunlar hamısı artıq idi. Onu yazan jurnalistlərə heç hirslənmirdim də. Düşünürdüm ki, verilən hansısa tapşırığı yerinə yetirən bu insanlar bəlkə də içərilərində bir ağrı yaşayırlar, yazdıqlarının düz olmadığını bilə-bilə ola bilməz ki, narahatlıq hissi yaşamasınlar.

***-Amma söhbət adi jurnalist yazılarından deyil, az qala dövlətlər arasında böyük bir qalmaqala səbəb ola biləcək faktlardan, iddialardan gedirdi. Mətbuat sadəcə baş verənləri işıqlandıran tərəfdir. Bundan öncə baş verənlər nə idi, nə baş verirdi?***

- Belə bir şey yox idi və ola da bilməzdi. Mən bu gün oğlumun adından danışıram, bu, heç o qədər də düz deyil. O özü bu məsələdə öz mövqeyini bildirdi. Birmənalı dedi ki, bunlar hamısı boş sözlərdir.

***- Yəni sizin və oğlunuzun nurçularla əlaqəniz...***

- Nurçularla bizim heç bir əlaqəmiz yoxdur, ola da bilməz. Çünki öz dövlətinə sədaqətlə xidmət edən bir insan hansısa bir təsirin altına düşə bilməz. Bizim bu fəaliyyətimiz göz qarşısındadır. Hansı bir yazı, çıxış, fəaliyyət buna səbəb oldu ki, belə bir iddiaları ortaya qoydular?

***- Bu müddətdə araşdırma aparmaq üçün xeyli vaxtınız oldu. Səbəbini araşdırdınızmı?***

- Bunu araşdırmağa heç ehtiyac da yox idi. Biz nəyi araşdıracaqdıq? Əgər bizim fəaliyyətimiz şəffafdırsa, bu cəmiyyətin qarşısında alnıaçıq varıqsa, mən nəyi araşdıracaqdım? Hansısa jurnalistin xülyasınımı, yalan, böhtanınımı?

***- Elnur Aslanovun işdən çıxarılması faktdır...***

- İnsanı işdən çıxarda, başqa yerə göndərə bilərlər. Heç kəs yerində əbədi qalmır. Əsas odur ki, harda olmasından asılı olmayaraq sən dövlətinə, dövlət başçına, cəmiyyətinə sadiq insan olasan. Nədən bu gün bizim cəmiyyətdə kiminsə işdən çıxarılmasını, yüksəlməsini, başqa bir mövqeyə keçirilməsini faciə kimi qəbul edirlər?

***- Reallıqda məmurlar özləri işdən çıxarılmalarını faciə sayırlar, bu, acı gerçəklikdir. Amma Elnur Aslanov gənc kadr idi, onun kifayət qədər ciddi mərtəbədən endirilməsi səbəbsiz ola bilməzdi...***

- Bəli, Elnur gəncdir. Hətta yadıma gəlir, mənim bir kəlmə sözüm belə qıcığa səbəb olmuşdu, onda "siyasətçi" sözü işlətmişdim. İndi deyəcəyəm Elnur elmlə məşğul olur, başqa şey deyəcəklər. Kiminsə fəaliyyətini lupa ilə izləyib onda qara nöqtələr axtarmaq istəyən hansısa mənbələr varsa, bu, artıq onların problemidir. İşdən çıxmağı, bir işdən başqasına keçməyi biz faciə kimi qəbul edən adamlar deyilik. Biz harda olmağımızdan asılı olmayaraq, bu məmləkətdə vətəndaş məsuliyyəti ilə yaşayırıq və öz vəzifəmizi də yerinə yetiririk. Başqa şey ola bilməz. Əgər kiminsə əlində dəlil-sübut olmuş olsaydı belə, inandırım sizi bu proses daha çox uzana bilərdi. Yazdılar-yazdılar, amma biz çox təmkinlə bu yazıların sonunu gözlədik. İndi də çevir tatı, vur tatı, onun ətrafında nəsə yazmaq istəyirlər.

***- Bəs Rəcəb Tayyib Ərdoğanın Bakıya nurçularla bağlı dosye gətirməsi, prezidentə təqdim etməsi barədə deyilənlər?***

- Bizim belə bir şey haqqında heç bir məlumatımız yoxdur.

***- Amma Ərdoğan çıxışlarında da dəfələrlə Azərbaycanda nurçuluğun uzantılarının olmasından danışmışdı...***

- Elə isə sizə sual edim: tək Elnur idimi?

***- Digər adlar da var idi.***

- Başa düşürəm. Ola bilər ki, Elnur hansısa bir işi yerinə yetirmədiyinə görə bir vəzifədən başqasına keçirildi, bu, hər kəsin həyatında ola bilən hadisədir. Amma buna dərhal belə bir ad verilməsi artıq jurnalist təxəyyülünün, yaxud həmin jurnalistlərə istiqamət verən şər qüvvənin fəaliyyəti idi.

***- Milli Məclisin komitə sədri olaraq ölkə başçısı ilə birbaşa görüşüb məsələyə aydınlıq gətirməyə cəhd etdinizmi?***

- Yox. Çünki mən bunu o qədər də ciddi qəbul etmədim. Burda bircə məsələ o idi ki, Elnur işdən getdi. Hər işdən getməyə görə dövlət başçısına müraciət etməyə ehtiyacmı var? Prezidentimiz kifayət qədər müdrik, hər kəsin yerini çox gözəl bilən, hər kəsi gözəl tanıyan bir insandır. Onu narahat etməyə ehtiyac da yox idi. Dövlət başçısı belə məsləhət bilibsə, Elnur orda da çalışar.



***- Fətullah Gülənə yazılan məktublar barədə iddialar haqda nə deyə bilərsiniz?***

- Bunlar hamısı yalandır. Belə bir məktub yox idi, ola da bilmzədi. Bütün bunlar quraşdırma bir şey idi. Elnur alnıaçıq, üzüağ, öz sədaqəti, əqidəsi ilə tanınan bir insandır. O heç vaxt belə bir addım atmazdı. Mən bunu qətiyyətlə, cəsarətlə deyirəm. Mən və oğlum hesab edirik ki, harda işləməyimizdən asılı olmayaraq öz mövqeyimiz var, hər ikimiz YAP-ın üzvüyük. Mən Azərbaycan insanının əqidəsi, vətənpərvərlik hissinin güclənməsi uğrunda mübarizə aparanların bəlkə də ən öndə olanlarından biriyəm. Bütün çıxışlarım, yazılarım buna həsr olunub. Eynilə də Elnurun bütün fəaliyyəti Azərbaycan dövlətçiliyinə, milli ideyanın güclənməsinə xidmət edib.

***- Nə vaxtsa Gülənlə görüşübmü? Yaxud siz özünüz...***

- Heç zaman görüşməyib. Nə də mən. Nə Fətullah Gülənlə, nə gülənçilərlə görüşməmişəm. Nə şəkillərimiz var, nə fəaliyyətimiz. Bunu araşdırmaq üçün Azərbaycanın böyük strukturları var, onlarda bir məlumat olardı. Dəfələrlə bununla əlaqədar müraciət etmişəm ki, yoxlanılsın.

***- Yoxlanıldı?***

- Bəli. MTN-ə məktub yazmışdım ki, xahiş edirəm fəaliyyətimizi yoxlayasınız. Çünki yazmışdılar "partiya yaradır" və s. Onu da yazmışdım ki, qəzetlərdə mənim haqqımda bu qədər yazılar yazılır, bunun qarşısını alın. Onlar da məktubumu Baş Prokurorluğa göndərmişdilər. Baş prokuror Zakir Qaralovun imzası ilə mənə məktub gəldi ki, xahiş edirik belə yazılarla əlaqədar olaraq məhkəməyə müraciət edəsiniz. Vəssalam. Ancaq mənim hansısa yazı ilə bağlı məhkəməyə müraciət etmək həvəsim yoxdur.

***- Ancaq bu iddialar Türkiyədən gəldi, gərək Türkiyə hakimiyyətini məhkəməyə verəydiniz.***

- (Gülür) Yox. Mən olmayan bir şeyə görə Türkiyə hökumətini niyə məhkəməyə verməliydim ki? Mənə qarşı rəsmən hansısa bir iddia, ittiham irəli sürülmüşdümü? Yox! Əgər əlimdə fakt yoxdursa, mən niyə Türkiyə hökumətini məhkəməyə verməliydim?

***- Siz, ya oğlunuz son vaxtlar Türkiyədə olmusunuz?***

- Mən hər ay Türkiyədə oluram. Pasportuma baxmanız kifayətdir. (Gülür) Müalicəyə də gedirəm, istirahətə də. Elnur da gedir-gəlir.

***- Yəni "arzuolunmaz" sayılmırsınız?***

- Yox, əzizim, biz "persona non-qrata" deyilik. Çünki biz Türkiyə dövlətinə də, prezident Rəcəb Tayyib Ərdoğana da böyük hörməti olan insanlarıq, onun əleyhinə olan bir ifadə belə işlətməmişik, ağlımızdan belə keçməyib. Nədən olsun? Bu, bacarıqla quraşdırılmış bir şantaj idi.

***- Nurçuluq məsələsində Elnur Aslanovla yanaşı Ceyhun Osmanov və Fərhad Məmmədovun da adı çəkilirdi. Niyə daha çox onların?***

- Onlar dostlardır, bir yerdə gənclər təşkilatında çalışıb. Bunların fəaliyyətində ortaya nə qoyuldu ki? Yaxşı ki, elə bu sualı verdiniz. Siz bütün bu aylar ərzində yazılan materialları götürüb bir balaca oxuyub analiz etsəniz, görərsiniz ki, sadəcə cümlələrin yeri dəyişdirilib. Eyni xarakterli, məzmunlu quraşdırma yazılar yazılıb. Dost insanlara bu kimi damğanı vurmaq nə dərəcədə düzgündür?

***- Bu damğanı vuranlar kimlər idi və səbəb nə idi?***

- Vallah, istedadlı insanlar həmişə hədəfdədir. Deyə bilmərəm nədir. Mən ümumiyyətlə, bunu yaddan çıxartmağa çalışıram. Çünki zaman hər şeyin cavabını verir. Bu gənclərin fəaliyyəti yenə göz qarşısındadır. Fərhad Məmmədov SAM-a uğurla rəhbərlik edir, Ceyhun Osmanlı millət vəkilidir, arxasında seçiciləri, Elnurun, yaxud mənim fəaliyyətim göz qarşısındadır. Sizə bir məlumat verim. *(Qalxaraq kitab rəfindən iki cilddə nəşr olunmuş "Əbədi müstəqillik, güclü dövlətçilik yolunda - polemik məqalələr, çıxışlar, müsahibələr" adlı kitabları gətirir)* Mənim bütün fəaliyyətimlə əlaqədar nəşr olunan kitablardır. Mənim 15 illik deputatlıq fəaliyyətimdə elə bir qəzet, jurnal olmadı ki, orda çıxan yazılarım, intervülər, şərhlərim kənarda qalsın. Hamısını toplayıb çap etdirdim, ictimaiyyətin ixtiyarına verdim. Hesabat verdim. Baxsınlar, lupa ilə deyil, lap nə ilə istəsələr baxsınlar, burda başdan-ayağa dövlətçiliyə, milli ideologiyamıza sədaqətimiz əksini tapır. Bundan o tərəfi yoxdur. Bu mövqeyimdən azacıq da olsa, kənara çıxmağım mümkün deyil.

***- Deməli, sizə kifayət qədər ciddi təzyiqlər olub...***

- Yox, mənə heç kim təzyiq etməyib. Hər kəs hesabat verməlidir. Gedib hardansa axtarmaq lazım deyil, buyurun, oxuyun, baxın. Ona görə də mən özümə və övladıma çox arxayınam. Bilirəm ki, kimlərinsə nəsə axtarmaq istəyi uğursuz başa çatacaq.

***- Hələ proses gedir, yoxsa bitib?***

- Mənim üçün heç əhəmiyyəti yoxdur. Əgər kimlərsə o prosesi davam etdirmək istəyirsə, bu, artıq onların öz problemidir.

***- Bu mərhələdə çevrənizdə "yarpaq tökümü" oldumu? Sizdən yan gəzən, məsafə saxlayan...***

- Əksinə, mən bundan zövq alan birisiyəm. Bu, belə də olmalıdır. O zaman özümü o qədər yaxşı hiss etdim ki. Uzun illərdir bir ifadə mənim həyat amalıma çevrilib: "Mən könül qırıqlığından zövq alan birisiyəm". Əgər hansısa çətin məqamda, dar ayaqda məni tərk edib gedən, məni yarı yolda qoyan birisi varsa, bir anlığa fikirləşib deyirəm: Allahım, sənə çox şükürlər olsun, nə gözəl ki, sən məni belə yaratmamısan, mən belə olmazdım, mən o insanı dar ayaqda, çətinlikdə qoymazdım. Deməli, keyfiyyət etibarilə mən daha yaxşı adamam.

***- Belələri çox oldu?***

*(davamı növbəti sayımızda)*

❑ **Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 25 (6053) 4 fevral 2015



# Bir Lamiyə vardı...

## Vaqif Səmədoğlunu itirdiyimiz günün ertəsi dostum sosial şəbəkədə belə bir status yazdı: “Niyə məhbus Lamiyənin xəbəri Vaqif Səmədoğlunun ölüm xəbərindən daha böyük hadisəyə çevrildi?”

Aysel ƏLİZADƏ

**Yazıçının obrazları adətən özündən məşhur olur, dostum. Yazıçını elə obrazları tanıdır. Bəzən kitabın adını unudub qəhrəmanın adıyla tanıyırlar əsəri.**

Şekspiri Hamlet, Hüqonu Qavroş, Cek Londonu Martin İden, Tolstoyu Anna Karenina ... elə Anna yerində saxlayaq.

Yazıçı Anar müsahibəsində belə deyib: “Mənə sual verirlər ki, ”Təhminə" niyə ölür? Deyirəm, yaxşı, onda deyin, “Anna Karenina” niyə ölür, “Hamlet” niyə ölür? Axı dünya ədəbiyyatının çox əsərlərində baş qəhrəmanlar ölür".

Eh, Anar müəllim, Anar müəllim...

Təkcə baş qəhrəmanlar yox, bütün insanlar tez, ya gec ölürlər. Məsələ bunda deyil!

Ölürlər, ancaq necə?

Bir müsahibim Anna Karenina haqda belə demişdi: “Onu cəmiyyət atdı qatarın altına!”

18 yaşından ərə verilən Anna yaşa doldu və günlərin birində başqa bir adamı sevdi. O zamanın rus mentalitetinə görə kübar, əsilzadə bir zümrədən olanlara bu, yolverilməz idi. Başqaları üçün xoşbəxt ailə tablosu yaratmalısan. Üzündə təbəssüm, ərinin qoluna girib hər yerdə onunla mutlu bir xanım kimi görünməlisən. Anna gizlətmədi sevgisini, ayrıldı ərindən. Ancaq toplum aşağıladı onu, qovdu, dışladı... Anna ən dəhşətli intiharı seçdi.

Yaxşı əsər mesaj verir. Doğmalarımızı mental sərsəmlikdən qorumağa çağırır.

Təhminəni də cəmiyyət öldürdü.

Lamiyə də yazılmayan romanın qəhrəmanıdır. Onu nə vaxtsa Tolstoy yazıb “Dirilmə”də. Katyuşadı Lamiyə. Katyuşa (Maslova) Nexlyudovla yaxınlıq edir və oğlanın onu atmasıyla həyatın məngənəsinə düşür. Sonunda fahişəyə çevrilir. Bir gün müştərilərindən birinin zəhərlənib öldürülməsində ittiham olunur. Məhkəmədə komissiya üzvlərindən biri həmin o Nexlyudov olur. Tolstoy yazır: “Məhkəmə - hakimlər, ittihamçılar hansı mənəvi kriterilərlə insanlara cəza verirlər və biz cəza verənlərin məhkumdan daha dürüst insan olduğunu hardan bilirik?”

Əsərin başqa bir yerində isə belə bir fikir yer alır: **“Fahişəlik - qadına vurulan ən böyük ləkədi, bunun da günahkarı cəmiyyətdi!”**

Suç-cəmiyyət-cəza kontekstində yazan digər yazıçı Dostoyevskidi. Ancaq onun məhkəmə sisteminə baxışı Tolstoydan fərqlidi.



Dostoyevski səbəb nə olur olsun, cinayət işləmiş Raskolnikovunu cəzadan qurtara bilmir. Onu sonunda qanuna təslim edir. Suç cəzasını alır. Ancaq bir məsələ də var, Raskolnikov ona pisliyi dəyməyən günahsız bir qarını öldürür. Bizim bütün psixoloji, mənəvi, sosial səbəblərimiz insan haqqına uduzur.

Bu tezislə qanun qarşısında cinayət edən yox, səbəbkar - əsl cinayətkar cavab verməlidi. Nəticənin yox, səbəbin şərhə ehtiyacı var. Çağdaş Qərb hüquq sistemində belə presedentlər az deyil.

Bir qız 15 yaşına kimi zorlanıb, nişanlanıb, qatil və məhbus olub. 15 yaşına kimi...

Qız prosesin sonuna kimi namusuna toxunduğu üçün oğlanı öldürdüyünü deyib. Bilinən budu.

O, heç özü də bilmir başına gələnlərin səbəbini. Onda da bilmirdi. Bəlkə bu gün də bilmir.

Öncə bunu yazaq: 12-14 (8-18 də pik nöqtə) yaş ən həssas - ikinci cinsi formalaşma dönəmidi qızların. Qızlıqdan qadınlığa keçid dövrüdü. Cinsəl meyli də təbiidi. Bu dönəmdə aqressiv də olurlar.

Bir qız 15 yaşına kimi bakirəliyini itirməyə, nişanlanmağa, qatil və məhbus olmağa vaxt tapıb. Bu nə deməkdi?! Nə işlərlə məşğuldu bu ölkənin cocuqları. Zorlanıb, ya öz istəyi ilə baş verib, hər halda, Lamiyə bakirə olmadığını nişanlısından gizlədib. Niyə gizlədib? Biz hamımız bunun cavabını adımız kimi bilirik. Qətlə də yol açan hamımızın bildiyi bu səbəbdir. Bakirə olmamaq ayıb sayılır. Nişanlı, ər özünü başıaşağı hiss edəcəkdi. Ona görə də biləndə birlikdə bu ləkədən qurtulmaq qərarına gəliblər. Baxmayaraq ki, nişanlı da sonadək məhkəmə zalında oturanlara heç nədən xəbəri olmadığını söyləyib. Ancaq son ucda ömürlük həbsə məhkum edilib. Zamanında belə bir xəbər yayıldı ki, guya ölənin cinsi orqanı kəsilib. Meyiti isə üzərində bıçaq izləri ilə çaydan tapıblar. Bunu qız təkbaşına edə bilərdimi?

Mental cəfəngiyyata görə nə qədər ölüm hadisəsi baş verir ölkədə. Üç gəncin həyatı məhv oldu. Kimsə uduşla, ləyaqətlə çıxmadı bu olaydan.

15 yaşlı qız nişanlanmalı yox, təhsil almalıdı. Həbsxana həyatında bunu başa düşüb: **“Yaşıdlarım universitetlərdə təhsil alır, mənsə burdayam. Belə olmasını istəməzdim”** - deyir. Bircə anasını tək qoyduğu üçün peşmandı. Qisası üçün yox. Azərbaycanlının mentalitetindən bilinir, o, heç vaxt qanunlarla idarə olunmayıb. Adamlar özləri çıxış yolu axtarır hələ də. Yalnız dəmir qanunlarla çözülər bu sorun. Uşaqları oxutmaq, bölgə-bölgə maraqlar, hobbilər yaratmaq kömək olar. Erkən nikahlarla mübarizəyə qalxmaq, qızların yalnız ər üçün böyüdülməsinə imkan verməmək kimi öhdəliklər var.

Hər şey ortada olsa da olayda ortada olmayan səbəblər aranır. Qadınsa yenə günahkardı. 25 yaşlı qız üçün də, 45 yaşlı, hətta 65 yaşlı qadın üçün də eyni şeylər deyilir burda. Əxlaq, namus mövzusunu qadının üstündən götürüb bütün insanlara aid etmək vaxtıdı. Əxlaqsızlığın həm də özbaşınalıq, rüşvətxorluq, şər, kiminsə haqqını yemək olduğunu anlatmalıyıq. Həbsxanada uşaq doğmaqla da dəfələrlə təcavüzə uğradığını demək istədi bəlkə də. Bəlkə də adından yayılan açıqlamada olduğu kimi, ümidsizliyə qapıldı, başa düşdü ki, ordan heç vaxt çıxmayacaq və həyatına anlam qatmaq istədi. Hər halda, bu onun ən doğru addımı oldu. Çünki insan taleyi yada düşdü. Sevdiyimiz, yaşlı bir şairin, yazıçının ölümündən daha ucuz bir hadisə deyil bu. Söhbət insan həyatından gedir. Bu mənada aid olduğum dördüncü hakimiyyətə - mediaya sayğılarımı çatdırıram. Pulun yox, insanın yanında olan mediaya. Jurnalistika çox sorunun çözülməsinə, yoluna qoyulmasına kömək edir, insanların pənah yeridi. Media olmasa insan taleyi tamamilə unudular.

Qıza gəlincə, cəza müddəti bitsə də onu azadlığa buraxmırlar. Guya kimləsə həbsdə dalaşıb və buna görə yenidən cinayət işi açılıb. Həbsxanada belə davalar, haray-həşir çox olur. Hər davaya cinayət işi açılmır, həbsxana qaydaları ilə karserə salına, icbari iş verilə bilər. Adi mübahisə üstündə 5 il 6 ay... onun qazamatda qalmasında yalnız Aslanov maraqlı deyil. İllərdi bundan çox adam faydalanmaq istəyir. Gözəl, kimsəsiz, rahat bir yemdi, oyuncaqdı bu qız onlar üçün. Buraxmırlar.

Bir tərəfdə Azərbaycanın ən imkanlı rayonlarından birinin sabiq icra başçısı, vəzifədə olarkən Nizami Gəncəvinin adına olan kəndə atasının adını (Əliyaqublu) verdirəcək qədər səlahiyyət yiyəsi, qohumları müxtəlif strukturlara başçılıq edən, yaratdığı futbol klubuyla ölkə birincilikləri “alan”, oliqarx Aslan Aslanov, digər tərəfdə yalnız “metrikası” olan, köməksiz, ölkəsinin qanunlarıyla qorunan (?) gənc bir qız - Lamiyə Quliyeva. Əlbəttə, belə bir durumda insanlar köməksizə acıyacaqlar. Ona görə də necə yaşamağımızın önəmi böyükdü. Gerçəkdən dərd gələndə bizə inansınlar, “yalançının evi yandı” misalını yaşamayaq. Övlad itkisi ağır dərddi. Necə əzablı olduğunu bütün normal adamlar anlayır.

Ancaq! Övladımızdı deyə istədiyini edə bilməz. Heçmi günahı, yanlışı olmayıb? Övladı üçün “nə istəyirsən et, arxandayam” pontu yaradan valideynlər, onu hamıdan öncə özünüz öldürürsünüz. Bir ailə tanıyırdım. Harın, havayı yeyən, ərköyün bir təpəgöz böyütmüşdülər. Oğlan bir qızı incitmişdi. Mən ömrümün sonuna kimi bağışlamazdım oğlumu. Ancaq həmin ailə heç nə olmamış kimi uşağına bəraət qazandırırdı. “Əşi, o qız küçədə qalmışın biriydi, ağlı olaydı, bizimki kişidi” deyirdi. Sonuc? Uzun çəkmir belə davranışlar, hardasa qırılır. O da “peredoza”dan öldü.

Necə olur, övladınız sevdiyi ilə razılığınız olmadan evlənirsə bağışlamırsız, ancaq başqalarına qarşı haqsızlığı, kiməsə qarşı tərbiyəsizliyi bağışlayırsınız. Bu necə olur?

***

Bir Lamiyə də vardı uzun illər öncə, Rəşad Nuri Güntəkin “Dodaqdan qəlbə”də yazıb onu. Gənc yaşından ləkələndi. Bətnində körpəsi olduğunu bilən kimi adamlar onu “kötü kadın” bildilər. Kimsəyə deyə bilmədi ki, sizin bəh-bəhlə adını çəkdiyiniz, sayğı duyduğunuz adamdı günahkar. Biz də öz “milli-mənəvi” tabularımızla, ölkədə hökm sürən özbaşınalıqla bir gözəl qızın həyatını məhv etdik.

# “İndi 37-ci il deyil ki...”

## **Sevinc Osmanqızı:** “Bu, siyasi sifarişdir, bu məsələyə məişət donu geyindirirlər”

**Barəsində cinayət işi başlanılmış tanınmış jurnalist Sevinc Osmanqızının müdafiəçiləri məhkəmə prosesinin qapalı keçirilməsinə etiraz edərək, məhkəmənin gedişinin ictimaiyyət və beynəlxalq müşahidəçilərin iştirakı ilə keçirilməsinə dair vəsatət veriblər.**



Bu barədə lent.az-a jurnalistin hüquqlarını müdafiə edən Elmira Sarıyeva məlumat verib. Onun sözlərinə görə, fevralın 3-də məhkəmədə jurnalistin hüquq müdafiəçiləri vəsatətin təmin olunması, məhkəmə prosesini izləmək arzusunda olan beynəlxalq səfirlik və ictimaiyyət nümayəndələrinin məhkəmə salonuna buraxılmasına nail olmağa çalışacaqlar.

S.Osmanqızı “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bu məsələyə məişət donu geydirərək, bağlı qapı arxasında qərar qəbul etməyə çalışırlar: **“Bu, siyasi sifarişdir. İndi 37-ci il deyil ki, kiməsə damğa vurub, sürgünə göndərəsən. Mən özümə qarşı başlanan cinayət işinin ictimaiyyət nümayəndələri və beynəlxalq müşahidəçilərin iştirakı ilə keçirilməsini tələb edirəm”.**

Qeyd edək ki, yanvarın 23-də Nərimanov rayon Məhkəməsinin hakimi Məzahir Sadıxov məhkəmə prosesinin qapalı keçirilməsinə dair qərar verib.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 25 (6053) 4 fevral 2015

## AS PA-dakı bir qalmaqallı səsvermənin ilginc pərdəarxası

**Qardaş Türkiyə Çanaqqala zəfərinin 100-cü ildönümü tədbirini uydurma erməni soyqırımının yubiley gününə təyin eləməklə uğurlu və effektli bir diplomatik gediş etmiş oldu. Bunu erməni təhlilçiləri də dolayısıya etiraf edirlər. Məsələ ondadır ki, erməni tərəfi, məxsusən də erməni lobbisi aprelin 24-dək saxta genosidin daha çox ölkə tərəfindən tanınmasına çalışmaqla yanaşı, indi həm də rəsmi Ankaranın eyni günə təyin elədiyi kontur-tədbirin siyasi-təbliğati effektini azaltmaq, bu tədbiri pozmaq üçün ciddi çabalar göstərmək zorunda qalıb.**



# İrəvana qarşı gizli Moskva-Bakı-Ankara anlaşması

Rusiya nümayəndə heyətinin uydurma soyqırımın 100 illiyi haqda sənədi əngəlləməsinin əvəzində Kremlə qarşı qətnamə əleyhinə öncədən Azərbaycan və Türkiyənin dəstəyini aldığı iddia olunur; düşmən ölkə deputatlarının Moskvaya qarşı de-marşının nədəni üzə çıxır...

Bu xüsusda ABŞ-ın Kaliforniya ştatında nəşr olunan "Kaliforniya kuryer" nəşrinin təsisçisi və redaktoru Arut Sasunyanın erməni KİV-ə etdiyi etiraf diqqət çəkir. Sitat: "Bizim əsas problemimiz "genosidin" Türkiyə tərəfindən tanınmasıdır. Təəssüf ki, Ankara nə bu il, nə növbəti il, nə də 50 il sonra "soyqırımı" tanımayacaq. Biz onları məcbur edə bilmərik. Əgər biz böyük, onlar isə kiçik dövlət olsaydı, onları məcbur edərdik. Ancaq biz balaca, onlar isə böyük dövlətdir. Odur ki, daha çox beynəlxalq məhkəmələr vasitəsilə səylərimizi artırmalıyıq".

Beynəlxalq məhkəmələr isə aydındır ki, 100 illik tarixi olan bir faciə barədə heç vaxt "soyqırım" hökmü çıxarmaz. Çıxarsaydı, Xolokost kimi bunu indiyədək edərdi, heç olmazsa, 2-ci Dünya savaşından dərhal sonra buna gedərdi.

Gerçək belədi ki, ermənilərin dünyadakı havadarları uydurma məsələdən yalnız türk dünyasının favorit dövləti kimi Türkiyəyə qarşı sırf siyasi təzyiq aləti kimi istifadə edib. Bu və yalnız bu. Tarixi türk torpaqlarında təşəkkül tapmış Ermənistana adlı indiki qondarma dövlətin əsas qarantı olan Rusiya da o sırada istisna təşkil eləmir. Bu da sizə sanballı dəlil - həm də ermənilərin öz dilindən.

Məlum olduğu kimi, Avropa Parlament Assambleyasının (AŞ PA) qış sessiyasında Azərbaycan və qardaş Türkiyə nümayəndə heyətləri Rusiyanı müdafiə edib - Kremlə qarşı sanksiyaları nəzərdə tutan qətnamənin əleyhinə səs veriblər. Halbuki, Rusiyanın marioneti Ermənistan əks mövqe tutub: işğalçı ölkəni təmsil edənlər *(başda heyətin rəhbəri, vitse-spiker, hakim partiyanın üzvü Ermine Nadalyan olmaqla 5 deputat)* bitərəf qalıb ki, bu da əslində elə Moskvanın iradəsi əleyhinə getmək anlamı verir.

Ötən saylarımızın birində nonsens təsiri bağışlayan bu faktın ilkin şərhi verilib. Doğrudan da, bütün beynəlxalq strukturlarda daim Kremlin qorxusundan onun yanında yer alan *(BMT-də Ukraynanın ərazi bütövlüyü haqda sənədin səsverməsi zamanı Rusiya ilə birgə onun əleyhinə çıxan 11 izqoy dövlətdən biri Ermənistan idi)* və yaxud sözəbaxan uşaq kimi Putinin Avrasiya (Gömrük və s.) layihələrinə qoşulan cırtdan Ermənistanda bu cəsarət hardandır?

**Sonuncu sualla bağlı erməni elektron KİV-lərindən birində maraqlı material yer alıb. Şərhdə deyilir:** "İndi məlum olur ki, Rusiya AŞ PA-da Ermənistana arxadan zərbə vurub. Belə ki, səsverməyədək Rusiya Azərbaycan və Türkiyə nümayəndə heyətləri ilə anlaşma əldə edib ki, Azərbaycan və Türkiyə Kreml əleyhinə qətnaməyə səs verməyəcək, bunun qarşılığında isə Rusiya ermənilərin hazırladığı uydurma soyqırımın 100 illiyi haqda sənədi dəstəkləməyəcək. Rusiya nümayəndə heyəti onu da bildirib ki, mövcud situasiyada onlara Ermənistan nümayəndə heyətindən sayca daha çox olan Azərbaycan və Türkiyə deputatlarının səsləri daha vacibdir. Beləcə, Ermənistan əleyhinə Rusiya-Türkiyə-Azərbaycan anlaşması baş tutub".

**Müəllif ardınca yazır ki, hələ Strasburqa yola düşməzdən öncə bəlli imiş ki, Ermənistan nümayəndə heyəti Rusiya əleyhinə qətnamənin əleyhinə səs verəcək, yəni həmişəki kimi Moskvanın mövqeyini müdafiə edəcək:** "Ancaq AŞ PA-da görəndə ki, ermənilərin çiyni arxasında türklərlə ruslar gizli anlaşma əldə ediblər, bizim deputatlar bitərəf qalıblar".

Qeyd edək ki, AŞ PA-nın növbəti (yaz) sessiyası aprelin sonuna (24 apreldən sonraya) nəzərdə tutulduğundan ermənilər məhz qış sessiyasında saxta genosid sənədini müzakirəyə çıxarmaq niyyətində imişlər...

*****

Yazıda əksini tapan iddianın ciddilik yükü haqda bir şey söyləmək çətindir. Dəqiq olan odur ki, son zamanlar Rusiya ilə Türkiyənin yaxınlaşması fonunda və Gümrü hadisələrindən sonra ermənilər öz müttəfiqlərindən yana xeyli xoflu, bədgüman və bir az da incikli olublar.

İddiaya Ermənistan nümayəndə heyətindən hələ ki heç bir reaksiya gəlməyib. Vitse-spiker Naqdalyan yalnız qısaca onu bildirib ki, AŞ PA-da səsvermə "situativ" *("şəraitə uyğun" - red.)* olub. "Biz *(erməni deputatlar -red.)* hətta zalın ayrı-ayrı yerlərində oturmuşduq" - deyib Naqdalyan və əlavə edib ki, Ermənistan həlledici məsələlərdə, o cümlədən Krım məsələsində həmişə Rusiyanı dəstəkləyib. Ancaq fakt faktlığında qalır ki, bu dəfə Ermənistan Rusiya üçün "həlledici məsələ"də onu müdafiə eləməyib.

**Məsələyə azərbaycanlı AŞ PA üzvlərinin münasibəti də hələlik bəlli deyil.**

**❑ Siyasət şöbəsi**

# Ermənilər Azərbaycana 350 milyard manat ziyan vurub

**Fevralın 3-də Atatürk Mərkəzində Sosial Rifah Partiyası, Mətbuat Şurası və Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin təşkilatçılığı ilə "Müasir Azərbaycanın unikal inkişaf modeli və tarixi erməni təcavüzünün beynəlxalq qiymətləndirilməsi reallıqları" mövzusunda konfrans keçirilib.**

APA-nın məlumatına görə, Sosial Rifah Partiyasının sədri, millət vəkili, erməni təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupun rəhbəri Xanhüseyn Kazımlı mövzu ilə bağlı məruzə ilə çıxış edib.

"MBA LTD" Qiymətləndirmə Şirkətinin prezidenti, erməni təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı itki və tələfatların hesablanması üzrə İşçi Qrupun üzvü Nüsrət İbrahimov məruzəsində 1989-1993-cü illərdə Dağlıq Qarabağ və ətraf rayonların işğalı ilə tarix və mədəniyyət abidələrinə, o cümlədən mülki əhaliyə dəymiş birbaşa zərərlərin müəyyən edildiyini tədbir iştirakçılarının diqqətə çatdırıb: **"Tarix və mədəniyyət abidələri üzrə dəyən zərər 177 milyard ABŞ dolları, əhalinin mülkiyyətinə vurulmuş zərər isə 55,4 milyard manatdır. Həmçinin hesablanması mürəkkəb olan yerüstü və yeraltı təbii sərvətlərin talan edilərək məhv edilməsi nəticəsində dəymiş birbaşa və dolayı zərərlərin 190 milyard ABŞ dollarından artıq olacağı şübhə doğurmur".**

Mətbuat Şurasının sədri Əflatun Amaşov, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyinin sədri Bayram Səfərov, habelə İşçi Qrupun digər üzvləri də məruzə ilə çıxış ediblər.

Tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri olmuş Behbud xan Cavanşir haqda sənədli film nümayiş olunub.

Qeyd edək ki, erməni təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı itki və tələfatların hesablanması üzrə İşçi Qrup Nazirlər Kabinetinin 26 fevral 2014-cü il tarixli sərəncamına əsasən yaradılıb.

# Milli jurnalistikanı düşünərkən...



**Hüseynbala SƏLİMOV**

**Ola bilsin, bu mövzu indi yalnız ritorik görünür... Kimsə onu sönmüş jurnalistika ocağının arxasınca deyilən bir rekviyem kimi də qəbul edə bilər. Biz "İlk milli mətbu orqanı hansı qəzet olub?"-deyə soruşmağı sevərdik və elə indi də sevirik. Amma elə ola bilər ki, tezliklə "Sonuncu müstəqil qəzet hansı olub?" - deyə soruşmağa məcbur olaq...**

Bu gün jurnalistika, ilk növbədə də yazılı-kağız mətbu ətrafında baş verən tendensiyaları iki qrupa ayırmaq olardı. Təbii ki, ən birincisi, necə deyərlər, siyasi tendensiyalardır...

Onlar bir və yaxud da bir neçə oxşar ölkə üçün xarakterikdir. Sözsüz ki, bu tendensiyaları öz adı ilə - azad sözə və fikrə qarşı yönələn siyasi təpkilər adı ilə təqdim etmək daha düzgün olardı... Amma məsələ aydındır, o şeyi ki, hamı görür və bilir, təhlilçilər bir qayda olaraq onunla məşğul olmurlar...

Ona görə yox ki, bu, müəlliflər üçün hansısa təhlükə kəsb edə bilər. Yox, belə deyil. Sadəcə, axır vaxtlar mətbu orqanların immuniteti o qədər aşağı düşüb ki, o, hətta ayrı-ayrı müəlliflərin immunitetindən belə zəif görünür...

Digər tendensiya isə, təbii olaraq baş verən prosesdir - internet mediası getdikcə daha çox kağız medianın dabanlarını tapdamaqdadır. Sözsüz ki, mətbuat aləmində baş verən prosesləri yalnız bununla izah etmək çətindir, ən azı ona görə ki, internetin yarandığı ölkələrdə kağız media hələ də öz mövqelərini qoruyub saxlaya bilir. Elə bu səbəbdən də bəzi ölkələrdə kağız medianın sürətli aqoniyası daha çox yerli siyasi amillərlə bağlıdır...

Kağız medianın, ümumiyyətlə, çap materiallarının üstünlüklərinə toxunanda biz son vaxtlara qədər bəzi texniki üstünlükləri qabartmağa məhkum idik- deyirdik ki, qəzeti, jurnalı və kitabı siz parkda və yaxud da divanda uzanaraq, hətta çimərlikdə oxuya bilərsiniz, səhifələrdə qeydlər apara bilərsiniz və s.

Amma görünür, internet mütəxəssisləri də boş dayanmır, bunların üzərində düşünür və işləyirlər. Axır vaxtlar elə elektron məmulatlar buraxılır ki, adam daha kağız medianı tərifləməyə söz də tapmır...

Amma bunlar yenə də məsələnin, necə deyərlər, texniki tərəfləridir, əslində internet mediası da yazılı medianın yeni formaya keçməsidir.

Bir yaradıcı sfera kimi jurnalistikanın özündə bundan heç də maraqsız proseslər baş vermir. İndi yeni keyfiyyət göstəricisi peyda olub - bu da ictimai jurnalistikadır... Onu görməmək, hiss etməmək çətindir - sosial şəbəkələrdə az qala hamı yazır, fikirlərini başqaları ilə bölüşür...

Bu halda adətən peşəkar və həvəskar jurnalistikadan danışırlar. Amma bəzən görürsən ki, həvəsi olan bəzi həvəskar jurnalistlər sosial şəbəkələrdə elə şeylər edirlər ki, peşəkarlar bunu yalnız arzulaya bilərlər...

Əvvəllər isə daha çox sırf informasiya jurnalistikası ilə bağlı çağırışlar dəbdə idi - deyirdilər ki, şərhlərin, esselərin, oçerklərin vaxtı keçib, adamlar daha çox informasiya istəyir...

Heç vaxt informasiya jurnalistikasının əleyhinə olmamışıq və şərhləri, esseləri, oçerkləri, felyetonları da siyasi süzgəc kimi təsəvvür etməmişik. Əsla bu fikirdə olmamışıq və indi də deyilik - nəinki cəmiyyət haqda bilgiləri, hətta fizika kimi elmi sırf informasiya anlayışı üzərində qurmaq cəhdləri var...

Sadəcə, belə hesab etmişik və indi də belə düşünürük ki, digər jurnalistika janrlarının da, xüsusən publisistikanın da yaşamaq haqqı var. Bəzən bu və ya digər janr şəraitdən, yerli siyasi sistemin özəlliklərindən asılı olaraq qabarır...

Məsələn, çox şey var ki, onları birbaşa deyə bilmirik. Ona görə ki, bunun formal hüquqi tərəfləri var - hətta Qaliley inkvizisiya məhkəməsinə sübut edə bilmədi ki, Yer fırlanır!.. Biz nə edək?..

Ona görə də bəzən publisistikanın verdiyi imkanlardan yararlanmağa, onlardan istifadə etməyə, bir az Ezop dililə və bir az da işarə ilə yazmağa və danışmağa məhkumuq...

Həm də bilirsiniz, bu, nəyə bənzəyir? Bəli, demək olardı ki, gəlin bütün tarixçiləri qovaq, yalnız arxeoloqlara pul verək, onları işlədək, çünki onlar bizə faktlar verirlər. Amma tarix elmi təkcə arxeoloqlardan ibarətdirmi?..

Jurnalistika da haradasa belədir. O, təkcə informasiya gətirəndən ibarət deyil.

Mən hələ jurnalistikanın maarifçilik missiyasını unutdum. Daha doğrusu, bunu axıra saxladım, çünki bəzi jurnalistika nəzəriyyəçiləri onu da inkar edir.

Həyat isə təkcə inkarlardan ibarət deyil. Hegel necə deyirdi? Tezis, anti-tezis və bir də sintez...



# Yazmadıqlarım

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud kişilər qəzet oxumalıdır

**Bir mətbəx sirrimi hörmətli oxuculara açmaq istəyirəm, əslində burda elə sirr-filan yoxdur, yəqin yazı-pozu ilə məşğul olanların çoxunda bu adət vardır. Söhbət ondan gedir ki, mən geniş yazmaq istədiklərimi öncə kiçik qeydlər şəklində bir qırağa yazıram. Kompüter olmayan vaxtlarda bu işi bloknotlarda görürdüm, indi kompüterin ekranına - desktopa atıram. Bəzən bu qeydlər çoxalır, ekranı təmizləməyə ehtiyac yaranır. Ancaq haqqında yazmadığım o qeydləri də atmağa heyfim gəlir. Bu baxımdan, ildə-ayda bir neçə dəfə belə təmizlik işləri aparmaq fikrindəyəm. İndi siz o yazılardan birincisini oxuyursunuz.**

**2014-cü il 2 marta** aid qeyddə siyasi dustaq Pərviz Həşimlinin üzləşdiyi çətinlikdən bəhs olunur. Pərviz bəy vəkili vasitəsiylə deyib ki, ona türmədə müstəqil kitab seçməyə imkan verilmir, daha çox sovet repressiyası dövrünə aid kitabları oxumağa məcbur edirlər, bu isə dustağa işgəncədir. Jurnalistin bu məsələyə münasibət öyrəndiyi şəxs isə... hüquq müdafiəçisi Leyla Yunusdur. Leyla xanım Pərviz Həşimliyə qarşı təzyiqləri pisləyir, hələ xəbəri yoxdur ki, ilin axırına az qalmış rejim onun özünü də türməyə salacaq.

**İkinci qeyd 5 yaşlı oğlum Oğuzun sözləridir.** 15 aprel, 2014. Oğuz hərf tanımasa da evdə qəzeti götürüb səhifələyir. Deyirəm nə edirsən, cavabı belədir: "Qəzet oxuyuram, axı kişilər qəzet oxumalıdır".

**11 iyul 2014-ə aid qeyd:** BDU rektoru Abel Məhərrəmova "ilin ən fəal və ən yaxşı rektoru" mükafatı verilib. Görünür, bunu şərh eləməyə söz tapa bilməmişəm. İndi də tapmadım.

**2014-ün yanvarına aid bir oxucu məktubu:** "Nəqliyyat nazirinin və əlaltılarının maliyyə işlərini aparan bir adam var, qohumlarıdır. Bu adam 300 min manata yaxın pulu kassadan əkişdirib, nazirin də xəbəri olmayıb ki, pulu elə qohumu aparıb, götürüb polisə şikayət verib. Polisdə kamera çəkilişlərinə baxıblar, məlum olub ki, oğru-zad yoxdur, pulu elə kassir özü aparıb. Polis kassiri tutub. Bu dəfə Ziya müəllim məcbur olub qohumunu içəridən çıxartdırmağa xeyli pul xərcləyib. Çıxardıb gətirib öz zirzəmilərinə salıblar". İtalyan mafiyası haqda filmləri xatırladan bu süjet haqda yazmamağımın bir səbəbi var: bunu necə dəqiqləşdirəsən? Bəlkə oxucu yalandan məktub yazıb?

**İyul ayı, yenə 2014.** Hökumətin AzərTAc agentliyi "mışdır, muşdur" şəkilçilərindən imtina edib, "Azərbaycan" qəzeti isə eləmir. Qəzetin şefi Bəxtiyar Sadıqov deyib ki, bizə bu şəkilçilər hələ lazım ola bilər. Mən bunu niyə qeyd eləmişdim? Şeytan bilir. Sildim, ekrandan rədd olub getmişdir.

**31 yanvar 2014.** Müğənni Rəqsanə İsmayılovanın qızı intervü verib deyir ki, anası maşın sürəndə qayda pozuntusu eləsə də yol polisləri ona hörmət eləyib saxlamırlar.

**Sentyabr 2014.** Deputatxana üzvü Hadı Rəcəbli jurnalistlərə xəbər verir ki, eynəklər haqda qanun hazırlana bilər.

**17 sentyabr 2014.** Baş prokurorluqdan məlumat verilir ki, dələduzluqda suçlanan məhkəmə hakimi Həsən Əliyevin işi ilə bağlı 3 prokurorluq əməkdaşı işdən çıxarılıb. Hər hakim tutulanda özüylə üç prokuror aparsaydı nə vardı ki...

**22 may 2014-ə aid xəbər:** Ramiz Mehdiyev deyib ki, ABŞ səfiri Riçard Morninqstar həddini aşıb. Elə o vaxtlardan bəri Amerikanın bizdə səfiri yoxdur. Ramiz müəllimin həmin intervüsünü şərh edən yazarlarımızın və QHT nümayəndələrinin çoxu isə hazırda türmədədir. Mən indiyəcən bunu nə üçün şərh etməmişəm, ümid edirəm anlaşıldı.

**Nəhayət, noyabr ayına aid xəbər.** Balakəndən bir nəfər deyir ki, burda seçki məntəqəsini 5 min manata satıblar. Ümumiyyətlə, yerli icra nümayəndəsi qabağına çıxan hər yeri satırmış.

Hələlik bu qədər. Desktopumuz xeyli açıldı, sizin də ürəyiniz açılsın.



# Politoloqdan Abbas Abbasovun milli mənşəyi haqda şok iddia

## "Kreml belə görünür ki, Abbas Abbasova stavka eləməyə başlayıb"

**Şərti olaraq "Milyarderlər ittifaqı" adlanan Rusiya Azərbaycanlıları İttifaqının (RATİ) yenidən aktivləşməyə başladığı haqda məlumatlar yayılıb. "Yeni Müsavat"ın bu barədə xəbərində deyilir ki, bugünlərdə Moskvanın elitar restoranlarının birində Dağıstan prezidenti Ramazan Abdulatipovun başda əyləşdiyi məclisdə Abbas Abbasovla bərabər Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyov da olub. Seçki ilində "Milyarderlər ittifaqı"nın yenidən təşkilatlanması (həmin məclisdə digər RATİ üzvlərinin iştirak etdiyi də deyilir) maraq doğurur.**

"Mümkündür ki, Kreml kritik parlament seçkiləri ərəfəsi yenidən rəsmi Bakını pressinq altında saxlamağı hədəfləyib" deyə, xəbərdə bildirilir.

Bəs "Milyarderlər ittifaqı"nın Azərbaycanda seçki ilində hansısa addımlar atması mümkündürmü? 2013-cü ildə sınaqdan çıxarılmış layihə yenidən dövriyyəyə buraxıla bilərmi?

**Politoloq Qabil Hüseynli** hesab edir ki, "Milyarderlər ittifaqı" layihəsi və bu layihədə iştirak edən qüvvələr Kremlin indikindən güclü olduğu 2013-cü ildə uğur qazanmayıbsa, Rusiyanın hazırkı zəif vaxtında nələrəsə nail olması inandırıcı deyil. Arxasında zəifləyən və hər gün bir az da zəifləməkdə olan Rusiyanın dayandığı hər hansı ittifaq, layihə heç nə edə bilməyəcək. Bununla belə, hər halda, "Milyarderlər ittifaqı" layihəsinin aktivləşməsi məsələsinin ciddi təhlilə ehtiyacı var: "Əvvəla, bu hadisələrin başında duran Ramazan Abdulatipovla Abbas Abbsovdur. Kreml belə görünür ki, Abbas Abbasova "stavka" eləməyə başlayıb. Abdulatipov da bu işdə az rol oynamayıb. Çünki bu iki şəxsin arasında yaxın dostluqdan əlavə etnik mənşə yaxınlığı da var. Məndə olan məlumata görə, Abbas Abbasovun da etnik mənşəyi Şimali Qafqaz xalqlarına gedib dayanır. Yəni onları təkcə müəyyən qayə, müəyyən amal deyil, həm də etnik mənşə qohumluğu birləşdirir. "AzərRos"da isə Söyün Sadıqov son vaxtlar mövqeyində xeyli düzəliş etdi və Azərbaycanı dəstəkləyən mövqeyə yaxın mövqe sərgiləməyə başladı. Əlbəttə, bu, Abbas Abbasovu və onun adamlarını qane edə bilməzdi. Bu səbəbdən də Abbas Abbasovla Söyün Sadıqovun toqquşması baş verdi. Görünüş belədir ki, toqquşmada Azərbaycan açısından Söyün Sadıqov qalib çıxdı. Təşkilatın böyük bir hissəsini öz ətrafında qoruyub saxlaya bildi və Abbas Abbasovun rəhbəri olduğu Ağsaqqallar Şurasını da ləğv elədilər. Kremlin "stavka"sı baxımından isə Abbas Abbasov üstünlük əldə edib. Abbas Abbasov o kəslərdən deyil ki, sakit otursun. O, Rusiyaya dincəlməyə getməyib. Kreml də ondan Bakıya təzyiq mexanizmi kimi istifadə edir. Abbas Abbasovun "Milyarderlər ittifaqı"nı yenidən toplayıb ssenari cızmağa çalışmaları, mənim zənnimcə, mənasızdır. Burada az-çox qazanan olacaqsa, o da Ramazan Abdulatipovdur. Mən Abbas Abbasovu azərbaycanlı hesab etmirəm. Onlar daxildə azərbaycanlıların əli ilə ölkəmizdə qarışıqlıq salıb özlərinin maraqları üçün istifadə etməyə çalışacaqlar".



### Qabil Hüseynli: "Abdulatipovla Abbasovu təkcə müəyyən qayə deyil, həm də qohumluq birləşdirir"

**"Milyarderlər ittifaqı"nın strateji planlarının Rusiyanın göstərişi ilə həyata keçirilməyə başlandığını deyən politoloq bildirdi ki, Azərbaycan prezidenti İlham Əliyev Almaniyaya səfər edəndən, bunun ardınca Amerika Yəhudi Komitəsinin üzvlərinin Bakıya gəlişindən sonra Moskva nədənsə şübhələnib:** "Baxmayaraq ki, AŞ PA-nın sessiyasında Azərbaycan tərəfi Rusiya nümayəndə heyətinin səs hüququnun alınmasının əleyhinə səs verdi, Rusiya Azərbaycandan razı olmadığını sezdirir. Gedən bəzi proseslər Kremlin narahatlığını artırıb. Qərb, birinci növbədə ABŞ Türkmənistanı «Transxəzər» qaz layihəsinə az qala razı salmış kimidir. Rusiyanın müxtəlif hürkütücü reveranslarına baxmayaraq, bu, günlərdə Aşqabadda Azərbaycanın, Türkiyənin və Türkmənistanın xarici işlər nazirləri ikinci dəfə görüşdülər. «Transxəzər» layihəsini müzakirə etdilər. Mən şübhə etmirəm ki, bu məsələdə Türkmənistan artıq Xəzər dənizinin dibindən qaz kəmərinin çəkilməsinə razılıq verib. Bu məsələdə Azərbaycan da onu dəstəkləyir. Beləliklə, Rusiyanın çox mühüm bir qaz kəməri layihəsi tamamilə təhlükə altına düşmüş vəziyyətdədir və perspektivləri görünmür. Bax, bunu görən Rusiya artıq Qara Dəniz Donanmasının, Xəzərdəki hərbi dəniz donanmasının, Krımda, Ermənistanda olan qoşunlarının iştirakı ilə coğrafiyaca çox böyük bir ərazidə irimiqyaslı hərbi təlimlərə başlayıb. Bu, region ölkələrinə, o cümlədən Azərbaycana əzələ nümayişidir. "Milyarderlər ittifaqı"nın hərəkətə gətirilməsi də Azərbaycana təsir elementlərindən biridir. Bəlkə də bir şey alındı məntiqi ilə addımlar atılmağa başlanıb. Bütün bunlar onu göstərir ki, Rusiya ciddi təşviş içərisindədir. Belə bir vəziyyətdə Rusiya həm separatçı qüvvələri fəallaşdırmağa çalışacaq, həm daxildəki "beşinci kolon"a hərəkət etmək komandası verəcək, həm öz daxilindəki azərbaycanlı oliqarxları səfərbər edəcək və onları hərəkətə gətirəcək. Aranı qarışdırmaq üçün bir çox şeyləri planlaşdıra bilərlər. Amma bir sual ortaya çıxır ki, bunun üçün vaxt və imkan çatacaqmı. Mən bu məsələdə tamamilə pessimistəm. Rusiyanın bu məkrli planları həyata keçirməyə nə vaxtı çatacaq, nə də imkanı. Artıq Rusiya defolt vəziyyətinə yaxınlaşmaqdadır. Artıq bu xına o xınadan deyil".

❑ **Etibar SEYİDAĞA**

# "Elə bir adam yoxdur Söyün Sadıqov onu aldatmasın"

## Abbas Abbasovun yaxın adamı belə deyir

**"AzerRos" Rusiya Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin Ağsaqqallar Şurasının üzvü, Nijni Novqorod Azərbaycanlılarının Mədəni Muxtariyyətinin sədri, Rusiya Jurnalistlər İttifaqının üzvü Vidadi Abbasov modern.az-a müsahibəsində Söyün Sadıqovu dönüklükdə ittiham edib.**



V.Abbasov deyib ki, konflikt başlayandan hamı vahid mövqedən çıxış edib: "Biz hamımız eyni fikirdə idik ki, "AzerRos" Azər Məhərrəmov üçün iş yeri olmamalıdır. Heç kəs, o cümlədən Abbas Abbasov da onun istefa verməsinə etiraz etmirdi. Lakin prezidentin istefasından sonra mənim həmkarlarım kənar qüvvənin təsiri altına düşdülər və razılaşmamızı pozdular. Onlar öz uğurlarından ruhlandılar və Ağsaqqallar Şurasının sədri Abbas Abbasovun da istefasını tələb etməyə başladılar. Belə olanda biz onlara dedik: "Dostlar, belə razılaşmamışdıq axı". Və yollarımız ayrıldı. Sadıqovun növbəti oyununun arxasında nə dayanır? Bunu ancaq onun özü bilir. Amma düzü, ona Abbas Abbasovu devirmək üçün çoxlu pul verildiyini danışırlar. Bunun doğru olub-olmadığını bilmirəm.

Söyün Sadıqov niyə Abbas Abbasova qarşı çıxdı? Cavab verirəm - bu, Söyün Sadıqovun həyat tərzidir. O, oyunçudur. Mən ortaq tanışımız olan bir azərbaycanlı belə, tanımıram ki, Sadıqov onu aldatmasın ya da yanıltmasın. Bu satqınlıq yalnız bir nəfər üçün, Abbas Abbasovun özü üçün gözlənilməz idi. Görünür, Söyünün çoxsaylı ictimai çıxışları onu inandırmışdı, o deyirdi: "Abbas müəllim bizim ağsaqqalımızdır və yalnız mənim deyil, bütün ailəmizin ağsaqqılıdır".



# Bakı Vaşinqtona yəhudi lobbisi ilə təsir etmək istəyir

## Ərəstun Oruclu: "Amerika Yəhudi Komitəsi kifayət qədər nüfuzlu təşkilatdır, ancaq..."

**Prezident İlham Əliyev fevralın 2-də Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Mətbuatda gedən məlumatda qeyd olunur ki, görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli əlaqələrin inkişafından danışılıb, Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələr aparılması baxımından əhəmiyyəti qeyd olunub.**

Qeyd edək ki, Amerikada nüfuzlu yəhudi lobbi təşkilatı olan Amerika Yəhudi Komitəsi ilə Azərbaycan hakimiyyəti arasında artıq neçə ildir ki, isti münasibətlər var. Komitənin rəhbərləri zaman-zaman Azərbaycana səfər edir, ölkə rəhbərliyi ilə görüşür. Eyni zamanda məlumatlara görə, məhz bu qurum rəsmi Bakının Amerikada lobbi işinin təşkilində yaxından iştirak edir. Yeri gəlmişkən, bir neçə gün əvvəl Bakıda səfərdə olan İsrail nümayəndə heyəti ilə görüş zamanı Prezident Administrasiyası İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənov bildirib ki, İsraillə yaxşı münasibətlər Azərbaycana Vaşinqtonda kömək edir. Belə ki, Amerika paytaxtında fəaliyyət göstərən yəhudi qrupları və İsrail liderləri amerikalı həmkarları ilə Azərbaycana dair çoxlu diskussiyalar aparırlar.

Virtualaz.org saytının məlumatına görə, bu barədə İsrailin "The Jerusalem Post" qəzeti yayıb. Qəzet Əli Həsənovun İsrailin Akko şəhərinin meri Şimon Lankri ilə onun Bakıya yanvarın 26-da baş tutmuş səfəri zamanı keçirdiyi görüşdə Ə.Həsənov deyib ki, İsrailin Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli ölkə olmasının səbəblərindən biri də onun Yaxın Şərqin çox mühüm dövləti olması və qabaqcıl texnologiyalara malik olmasıdır.

Amerika Yəhudi Komitəsi sədrinin Bakıya budəfəki səfəri rəsmi Bakı ilə Vaşinqton arasında münasibətlərin gərgin olduğu dönəmə təsadüf edir. Hansı ki, indi məhz Bakı Vaşinqtonla münasibətlərdəki soyuqluğu aradan qaldırmağa çalışır. Bununla bağlı ötən ayın sonunda MM komitə sədri Səməd Seyidov və deputat, ABŞ-da yaxşı əlaqələri olan Asim Mollazadə Vaşinqtona səfər edib. Səfərin təşkilatçısı isə Azərbaycan hakimiyyəti ilə yaxın münasibətlərə malik, Bakıda Vaşinqtonun səfiri olmuş iki diplomat Riçard Morninqstar və Ross Uilsondur. Müşahidəçilər Mollazadə və Seyidovun Vaşinqtona səfərinin məhz münasibətləri qaydaya salmaq məqsədilə həyata keçirildiyini qeyd edirlər. Yeri gəlmişkən, gələn məlumatlara görə, S.Seyidov Vaşinqtondakı çıxışlarında Vaşinqtonla əməkdaşlığın Bakının strateji prioriteti olduğunu bildirib.

Yəhudi Komitəsi Sədrinin Bakıya səfərinin bu ərəfəyə təsadüf etməsi ilk növbədə Bakının Vaşinqtonda başladığı diplomatik hücumun yeni mərhələsi kimi anlaşılır. Belə görünür ki, Bakı ənənəvi tərəfdaşları Vaşinqtonla əlaqələri düzəltmə prosesinə cəlb edir. Amerika Yəhudi Komitəsi güclü yəhudi lobbisi vasitəsilə bu istiqamətdə mühüm işlər görə bilər, hansı ki, bu günə qədər görüb. Ancaq münasibətlərin indiki vəziyyətində lobbi təşkilatlarının vasitəçiliyinin gözlənilən effekti verəcəyi şübhə altındadır.

**Mövzunu "Yeni Müsavat"a şərh edən politoloq Ərəstun Oruclu bildirdi ki, Amerika Yəhudi Komitəsi Azərbaycana müsbət münasibəti ilə tanınan bir qurumdur. Ekspert indiki dövrdə nüfuzlu qurumun rəhbərinin Bakıya səfərinin məhz Vaşinqton-Bakı münasibətlərindəki gərginliklə bağlı olduğunu düşünür:** "Mənə açığı, aydın deyil ki, niyə rəsmi Bakı yəhudi faktorunu bu qədər qabardır və məhz Amerika yəhudi icmaları vasitəsilə Vaşinqtonla münasibətləri tənzimləməyə çalışır? Təbii ki, Amerika Yəhudi Komitəsi kifayət qədər nüfuzlu təşkilatdır və həmin təşkilatın yalnız hakimiyyətə deyil, ümumiyyətlə, Azərbaycana münasibəti yetərincə pozitivdir. Mən bunu bu təşkilatı yaxından tanıyan adam kimi deyirəm. Və şübhəsiz ki, Devid Harrisin səfəri heç də təsadüf deyildi, mənə elə gəlir ki, bu səfərə hazırkı Azərbaycan-ABŞ münasibətləri kontekstində baxsaq daha aydın görünər. Ancaq istənilən halda Azərbaycan-ABŞ münasibətlərində kifayət qədər boşluqlar var və Diaspora Komitəsindəki görüşdə də Devid Harrison bunu açıq şəkildə dedi. Yəhudi Komitəsinin sədri dedi ki, Azərbaycan Amerikada tanınmır və sairə. Yəni əslində bu, kifayət qədər tənqidi bir qeyd idi. Çünki belə çıxır ki, Azərbaycanın lobbiçiliklə məşğul olan bütün qurumları, o cümlədən səfirlik - hansı ki, bilavasitə bu işlə məşğuldur - heç bir ciddi nəticəyə nail olmayıb. Amma biz bilirik ki, kifayət qədər ciddi planlar da tutulub, işlər də görülüb. Ancaq nəticə yoxdur".



Ərəstun Oruclu

**Ə.Oruclunun fikrincə, hazırkı vəziyyətdə lobbi təşkilatlarının münasibətlərdəki soyuqluğu tamamilə aradan qaldırması mümkün deyil. Ekspertə görə, indi Bakı ilə bağlı rəsmi Vaşinqtonun siyasətinə lobbi təşkilatları ilə təsir imkanları xeyli dərəcədə məhdudlaşıb:** "Və o cümlədən də, mən düşünmürəm ki, hətta Amerika Yəhudi Komitəsi kimi nüfuzlu bir təşkilatın Vaşinqtonun siyasətinə təsiri olacaq. Təbii ki, müəyyən təsirlər olacaq. Amma birbaşa bugünkü vəziyyətin aradan qalxacağına əmin deyiləm. Çünki bu vəziyyətin yaranmasının ciddi səbəbləri var. Bunlardan biri və birincisi isə Azərbaycanın Rusiya ilə yaxınlaşmasıdır. Lobbiçilik müəyyən bir həddə qədər təsirlidir. Məsələn, hansısa anlaşılmazlıq aradan qaldırmağa, müəyyən irəliləyişə nail olmağa təsir göstərə bilər. Lakin Azərbaycanın Rusiya və ABŞ-la münasibətləri konseptual məsələdir. Bu məsələdə əsaslı dəyişikliklər olmayınca, düşünmürəm ki, hətta Amerika Yəhudi Komitəsi kimi təşkilatların səyləri effekt verə".

❑ KƏNAN

# Ukrayna səfiri Strasburqda Azərbaycanın Rusiyaya tərəf olmasını pisləyib

## Elxan Şahinoğlu: "Ukrayna səfiri bəzən fikirlərini diplomatik etiketdən kənarda ifadə edir"

**Xəbər verdiyimiz kimi, fevralın 2-də politoloq Elxan Şahinoğlunun Ukrayna hadisələrindən bəhs edən "Maydandan Maydana" kitabının təqdimat mərasimi keçirilib. Ukraynada 2013-cü ilin payızından başlayan Maydan hadisələrindən sonrakı dövrdən bəhs edən kitab müəllifin bir neçə dəfə hadisələrin cərəyan etdiyi bölgələrə səfər təəssüratları ilə daha da zənginləşib. Bakıda keçirilən "Maydandan Maydana" kitabının təqdimat mərasimində Ukraynanın Azərbaycandakı səfiri Aleksandr Mişenko da iştirak edib və geniş çıxış edib.**



Elxan Şahinoğlu

Moderator.az saytının məlumatına görə, təqdimat mərasimində səfir Azərbaycan nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyası qış sessiyasında Rusiyanın səsvermə hüququndan məhrum etməsinin əleyhinə çıxmasına öz etirazını bildirib. Bu zaman ciddi qalmaqal yaranıb. Ukraynalı səfir Azərbaycanın tutduğu mövqenin düzgün olmadığını və Putin kimi hərbi xuntanı dəstəkləməkdə ittiham edib.

Saytın yazdığına görə, səfirin bu çıxışı toplantı iştirakçılarını ciddi narazılığı ilə qarşılanıb və tədbir iştirakçıları Azərbaycanın belə bir mövqe nümayiş etdirməsinin səbəblərini açıqlayıblar. Qarşılıqlı ittihamlarla müşayiət olunan toplantıda ukraynalı səfir diplomatik etik qaydalardan kənara çıxaraq Azərbaycanın ünvanına sərt ittihamlar səsləndirib.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verən tədbirin təşkilatçısı, politoloq Elxan Şahinoğlu qalmaqal yaranması ilə bağlı məlumatı təkzib etdi. Tədbirdə sadəcə polemika olduğunu qeyd edən müəllif həm səfirin, həm də bəzi iştirakçıların öz fikirlərini bildirdiyini dedi:** "Kitabın təqdimatına Ukraynanın Azərbaycandakı səfirini də dəvət etmişdim. Səfir Azərbaycanın siyasəti ilə bağlı fikirlərini bildirdi, Ukrayna ilə bağlı məsələlərə toxundu və müəyyən narazılıqlarını dilə gətirdi. Sağlam bir polemika gedirdi. Səfir özü də narazı qalmadı, əslində kitab müzakirəsi, polemika belə olmalıdır. Ancaq qalmaqal yaşanması, kiminsə təhqir olunması doğru deyil, belə bir şey olmayıb. Polemika oldu, mən də öz fikirlərimi dedim, Azərbaycanın AŞ PA-dakı səsvermədə ortaya qoyduğu mövqeyə münasibətimi bildirdim. Mənim də öz narazılıqlarım vardı. Səfir və digər iştirakçılar fərqli mövqelərini ortaya qoydular. Mən açığı, bilmirəm moderator.az saytı necə yazıb, amma orda sadəcə bir qədər sərt polemika yaşandı".



Aleksandr Mişenko

**E.Şahinoğlu deyir ki, tədbirdə bir qədər sərt formada, ancaq müzakirələr olub və kimsə tədbiri tərk etməyib:** "Ukrayna səfirini neçə vaxtdır tanıyıram, bəzən fikirlərini diplomatik etiketdən kənarda ifadə edir. Üslubu bir az sərtdir, həm də bir az daha geniş izahat verir. Məsələn, bizim tədbirdə təxminən 1 saata yaxın danışdı. Ondan sonra müəyyən suallar oldu, fərqli fikirlər ortaya qoyuldu. Yəni bir qədər sərt, ancaq sağlam bir polemika oldu".

❑ KƏNAN

## Martın 1-dən Rusiya vətəndaşları Ukraynaya yalnız xarici pasportla daxil ola biləcək

**Ukrayna Nazirlər Kabineti 1 mart 2015-ci il tarixindən etibarən Rusiya vətəndaşlarının ölkəyə daxili pasportla girişini qadağan edib. APA-nın "112.ua" saytına istinadən verdiyi məlumata görə, baş nazir Arseni Yatsenyuk bildirib ki, bundan sonra Rusiya vətəndaşları Ukrayna ərazisinə yalnız xarici pasportla daxil ola bilər: "Biz daxili pasport və doğum haqqında şəhadətnamənin dövlət sərhədini keçmək üçün yetərli sayıldığı müddəanı aradan qaldırırıq".**

Diplomatik və xidməti pasporta malik olan Rusiya vətəndaşları isə əvvəlki qaydada Ukrayna sərhədini keçə biləcəklər.

YENİ MÜSAVAT
N 25 (6053) 4 fevral 2015



# Etnik qarşıdurmanı kimlər yaradır?

Azər RƏŞİDOĞLU

**Azərbaycana Rusiyanın təzyiqlərinin artdığı bir zamanda ölkədə etnik qarşıdurma yaratmaq istəyənlərin cəhdləri daha da artır. Son günlər sosial şəbəkələrdə milli ədavətin qızışdırılması da təsadüfə bənzəmir. Artıq xeyli müddətdir ki, "talış məsələsi" süni şəkildə qızışdırılır. Müzakirələr artıq tarixçilərin məsələyə yanaşması prizmasından çıxmaqdadır. Ölkədə etnik qarşıdurmanın heç bir tarixi kökü olmasa da, kimlərsə "qardaş qırğını" törətməkdə israrlı görünür.**

İnsanları özbaşınalıq edən məmurları hədəf seçməkdən yayındırmaq və separatçı meylləri gücləndirmək heç də xoş perspektivdən xəbər vermir. Proseslərdə Rusiyanın kölgəsi aydın sezilməkdədir. Belə ki, vəziyyətin təhlili göstərir ki, Azərbaycanın şimal bölgələrində Rusiyanın, cənubda isə İranın təsiri daha çox hiss olunur. Bu baxımdan, Moskvanın və Tehranın həmin ərazilərdə nəzarəti ələ keçirməsi cəhdi real görünür. Onu da nəzərə alaq ki, işğal olunmuş ərazilər onsuz da Moskvanın nəzarətindədir və şimal rayonlarının nəzarətə götürülməsi Kremlin planlarının həyata keçirilməsinin tərkib hissəsi kimi dəyərləndirilə bilər. Əgər bu baş verərsə, Azərbaycanın cənub bölgəsinin də İranın nəzarətinə keçə biləcəyini ehtimal edə bilərik.

Bir sözlə, Azərbaycan üçün heç də xoş olmayacaq proseslər başlamaqdadır.

Rusiya təhlükəsi o dərəcədə realdır ki, hakimiyyət təcili tədbirlər planı görməyə məhkumdur. Hətta Azərbaycanda elə vəziyyət yarana bilər ki, ölkənin mövcudluğunun özü sual altında qala bilər.

1993-cü ildə Talış Muğan Respublikası ideyası, elə həmin vaxt müstəqil Ləzgistan ideyası gündəmdə idi. Bu gün süni şəkildə oynadılan "talış kartı"da eyni ssenarinin təkrarlanacağı ehtimalından xəbər verir.

Bu gün ölkənin şimal bölgəsinin bəzi ərazilərində Azərbaycan qanunlarına boyun əyməkdən yayınmaq halları, rəsmi Bakıya meydan oxumaq cəhdləri və dövlət dilinə saygısız münasibət müşahidə edilməkdədir. Bu ərazilərdə yaşayan əhalinin əhəmiyyətli bir kəsiminin çörək pulu dalınca Rusiyaya yollanması, qonşu ölkəni daha da cəlbedici göstərir. Azərbaycanda Rusiya ilə müqayisədə problemlərin daha çox olması separatçı kəsimə "Rusiya tərkibində, qardaş Dağıstanla birləşərək, daha yaxşı yaşayar bilərdik" fikrini aşılamağa rəvac vermiş olur. Bir sözlə, şimal bölgələrində müəyyən qüvvələr Moskvaya Bakıdan daha çox arxalanırlar. Bununla paralel, müəyyən təxribatçı qüvvələrin "Müstəqil Ləzgistan" yaratmaq cəhdləri vəziyyəti daha da qəlizləşdirir. Şimal bölgəsində sələfi əqidəli insanların günü-gündən güclənməsi isə gələcəkdə Azərbaycanda etnik münaqişənin dini müstəviyə transfer edə biləcəyini ehtimal etməyə əsas verir. Belə ki, ölkənin cənub bölgəsində də iki ölkənin təsiri aydın hiss olunur - İran və əlbəttə ki, əsas dolanışıq mənbəyi olan Rusiya. Bu bölgədə şiəliliyin əsas amil olması isə gələcəkdə şimal və cənub bölgələrinin dini müstəvidə savaşının xəbərçisidir. Belə bir vaxtda, "talış kartı"nın işə salınması heç də təsadüfə bənzəmir.

Azərbaycanın parçalanması və zəiflədilməsi üçün bundan "gözəl" fürsət ola bilməz. Maraqlıdır ki, istər bəzi separatçı talış mərkəzləri, bəzi ləzgi mərkəzləri eyni dəyirmi masalarda iştirak edir və rəsmi Bakını şantaj edirlər. Baxmayaraq ki, onlar gələcəkdə bir-birlərinə qarşı savaşın iştirakçıları ola bilərlər.

Proseslər olduqca həssas bir müstəviyə transfer etməkdədir. Odur ki, etnik kartı oynadanlar anlamalıdırlar ki, bütün bunlar nə ilə başa çata bilər...

## Vergilər Departamenti "plana" düşdü

# Prezident nazirin ən böyük idarəsini ləğv etdi

### Vergilər Nazirliyinin Bakı Şəhər Vergilər Departamentinin ləğvini dövlətin ixtisarı hesab edənlər də var, Fazil Məmmədovun vurulması sayanlar da; bu basabasda isə vergi müfəttişləri sahibkarların obyektinə çöküb onlardan xərac yığırlar

**Azərbaycan prezidenti İlham Əliyev "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Strukturu"nda dəyişiklik edilməsi haqqında sərəncam verib. Sərəncama əsasən Vergilər Nazirliyinin Bakı Şəhər Vergilər Departamenti ləğv edilib.**




**Ölkə başçısının bu qərarını təhlil edən iqtisadçı ekspert Qadir İbrahimli "Yeni Müsavat"a bildirib ki, bu, struktur dəyişikliyi olmaqla yanaşı, həm də işçilərin ixtisarıdır:** "Hər hansı qurumda birbaşa ixtisarlar aparanda bu, cəmiyyətdə psixoloji gərginliyə səbəb olur. İnsanlar düşünürlər ki, bunun-la dövlət qurumlarında ixtisarlara start verildi. Ancaq hansısa bir strukturu ləğv edəndə onda ixtisar aparmağa ehtiyac qalmır, orada çalışan insanlar avtomatik olaraq işdən azad olunmuş sayılır. Bakı Şəhər Vergilər Departamenti Vergilər Nazirliyinin ən nəhəng strukturu idi. Bildiyiniz kimi, Azərbaycanda vergilərin 82-83 faizi Bakı şəhərindən toplanır. Həmin departamentin ləğv edilməsi o deməkdir ki, orada çalışan işçilərin 25-30 faizi Vergilər Nazirliyində işə götürüləcək, qalan 70 faizi isə işsizlər ordusuna qatılacaq. Mən bunu ölkənin neft gəlirlərinin azalması fonunda dövlət strukturlarında ixtisarların başlanması kimi qiymətləndirirəm. Çox güman ki, digər nazirliklərdə də analoji addımlar atılacaq".

Qeyd edək ki, bir neçə gün öncə Bakıda xırda sahibkarlıqla məşğul olan vətəndaşlardan bir neçəsi "Yeni Müsavat"ın redaksiyasına müraciət edərək Vergilər Nazirliyi müfəttişlərinin hər ay onlardan xərac topladığını bildiriblər. Sahibkarların sözlərinə görə, tələb olunan məbləğdə pulu verməkdən imtina etdikdə, müfəttişlər onları "dövlətçiliyə qarşı çıxırsan" ifadəsi ilə şantaj edirlər. Şikayətçilər qeyd edirlər ki, onlardan gəlirlərinin xronometrajını tələb edən vergi əməkdaşları əvvəllər ildə bir dəfə gəlirdilərsə, indi hər ay gəlirlər.

Bu iddialara münasibət bildirən ekspert Qadir İbrahimli bunu dövlət büdcəsinin gəlirlərinin azalması ilə əlaqələndirdi: "Burada təbii ki, qanuni məsələlər də var. Ancaq problemin başqa bir tərəfi odur ki, dövlət büdcəsinin gəlirləri azaldığından Vergilər Nazirliyi məcburdur ki, özünün mövcud daxili vergi qaynaqlarını nəzarətə götürsün və həmin obyektlərdən daha çox vergi toplansın. Bu zərurətdən bəzi vergi müfəttişləri maxinasiya kimi istifadə edirlər, lazım olmadığı hallarda belə sahibkarın fəaliyyətinə müdaxilə edirlər. Ancaq əsasən götürsək, hazırda həm Maliyyə Nazirliyində, həm də Vergilər Nazirliyində gəlirlərin artırılması və xərclərin maksimum ixtisarı ilə bağlı çox ciddi müzakirələr gedir. Bunun nəticəsi kimi Vergilər Nazirliyi vergi tutma bazasını genişləndirmək üçün sahibkarlara müdaxilə edir. Belə hallarda sahibkarlar qanunla öz hüquqlarını tələb etməlidirlər. Təbii ki, demək olmaz ki, bütün sahibkarlar çox yaxşı vergi ödəyiciləridirlər. Vergidən yayınma hallarına yol verilir, bu təcrübə bütün dünyada var. Vergidən yayınma hər bir sahibkarın ilkin məqsədlərindən biridir. Sahibkarlar çalışırlar ki, daha çox gəlir əldə edib, daha az vergi ödəsin. Bu hallar da vergi müfəttişlərinin sahibkarlardan qeyri-rəsmi vergi yığmasına təkan verir. Bu, kompleks bir məsələdir. Burada həm vergi strukturlarının, həm də sahibkarların məsuliyyət həddi müəyyən olunmalıdır. Hesab edirəm ki, bu məsələ növbəti aylarda daha aktual olacaq. Çünki ölkənin neft gəlirləri azalıb. Bu boşluğun digər mənbələr hesabına kompensasiya edilməsi müzakirəyə çıxarılıb və müzakirələr davam edir. Vergi müfəttişlərinin sahibkarlardan vergilər toplamaq səlahiyyəti var və bu onların missiyasıdır. Ancaq bundan sui-istifadə edib xərac toplanması qanuna ziddir".


Fazil Məmmədov

**Sahibkarların şikayəti ilə bağlı sorğumuza Vergilər Nazirliyinin mətbuat xidmətindən belə cavab verilib:** "Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 16-cı maddəsinə əsasən, qanunla müəyyən edilmiş vergiləri ödəmək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir. Məcəllənin 24-cü maddəsinə əsasən, vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etmək, vergi ödəyicilərinin hüquqları və qanuni mənafelərini gözləmək və müdafiə etmək vergi orqanlarının vəzifələrinə, 23-cü maddəsinə əsasən isə, bu məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada kameral və səyyar vergi yoxlamalarını, operativ vergi nəzarətini keçirmək vergi orqanlarının hüquqlarına aid edilmişdir.

Vergi orqanlarının qərarlarından razı qalmayan vergi ödəyiciləri yuxarı vergi orqanına və ya məhkəməyə şikayət edə bilərlər.

Bildiririk ki, vətəndaşlar, o cümlədən vergi ödəyiciləri tərəfindən konkret məsələlərlə bağlı qanunvericilikdə müəyyən edilmiş qaydada Vergilər Nazirliyinə daxil olan hər bir müraciət araşdırılır və lazımi tədbirlər görülərək qanuna müvafiq qaydada cavablandırılır".

***

**Sonda qeyd edək ki, Vergilər Nazirliyinin Bakı Şəhər Departamentinin ləğvini neftin qiymətinin düşməsi fonunda dövlətin artıq yüklərdən xilas olması üçün başladılan ixtisar hesab edənlər də var, Fazil Məmmədovun vurulmasının başlanğıcı sayanlar da. Azərbaycanda belə bir ənənə var ki, vurulması planlaşdırılan nazirin, komitə sədrinin öncə səlahiyyətləri azaldılır, inzibati imkanları məhdudlaşdırılır, sonra onu işdən alırlar, bəzən də proses daha pis istiqamətlərəcən inkişaf edir. Yəqin yaxın zamanlarda Fazil Məmmədovla da bağlı vəziyyət aydınlaşacaq...**

Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 25 (6053) 4 fevral 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi





# Həmsədrlər prezidentlərin görüşünü təşkil etmək istəyir

## "5-lik Sədrlər Şurası" təklifindən dərhal sonra Minsk Qrupu üzvlərinin aktivləşməsi maraq doğurur; Türkiyə və Almaniya həmsədrlərin sayının artırılması məsələsinə münasibət bildirdi

**Ermənistanın təxribatlarından əl çəkməməsi, cəbhədə vəziyyəti mütəmadi olaraq gərginləşdirməkdə davam etməsi, təbii olaraq Azərbaycanı adekvat addımlar atmağa vadar edir. 2014-cü ilin noyabrında Ağdam səmasında Ermənistan Hərbi Hava Qüvvələrinə məxsus təyyarənin vurulmasından düşmən ölkənin bir nəticə çıxarmadığı da göz önündədir. Bu ilin yanvar ayından isə ermənilər hər gün atəşkəsi pozur, təxribatlar törədirlər. Ordumuz bu təxribatların qarşısını alarkən 20-dən çox erməni hərbçisini məhv edib, həmçinin bir neçə gün öncə düşmənin pilotsuz uçan hərbi aparatı məhv edilib.**

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri fevralın 3-də cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 68 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar, Berkaber, Vazaşen və Noyemberyan rayonunun Barekamavan kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı, Qaymaqlı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Ağdam rayonunun Sarıcalı, Yusifcanlı, Novruzlu, Şıxlar, Kəngərli, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb. Düşmən cavab atəşi ilə susdurulub.

Ermənilərin günü-gündən azğınlaşması, sülh danışıqlarında maraqlı görünməmələri təbii ki, Azərbaycanın diqqətindən yayınmır. Milli Ordumuzun irimiqyaslı hərbi təlimlərə başlaması da həm Ermənistana, həm də dünyaya bir siqnal olmalıdır...

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən fevralın 2-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun rəhbərliyi altında Silahlı Qüvvələrin bütün qoşun növlərinin cəlb olunması ilə irimiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.

Təlimlərə 15.000 nəfərədək şəxsi heyət, 300-dək zirehli texnika, raket və artilleriya qoşunlarının 200-dən artıq qurğusu, Hərbi Hava Qüvvələrinin 20-dək aviasiya vasitəsi, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri cəlb edilib.

Ali Baş Komandanın göstərişinə əsasən təlimlər zamanı birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə ehtiyatda olan 5.000 nəfərədək hərbi vəzifəli və 300-ə yaxın avtomobil texnikası təlimdə iştirak edir.

Əlbəttə, Azərbaycan tərəfi müharibəyə hər an hazır olduğunu ən yüksək səviyyədə dəfələrlə bəyan edib. Son vaxtlar isə ermənilərin cəbhədə yaratdığı gərginliyin fonunda həm yerli, həm də beynəlxalq ekspertlər Qarabağda müharibənin yenidən alovlana biləcəyini istisna etmirlər, bununla bağlı həyəcan təbili çalırlar.

Eyni zamanda ATƏT rəsmiləri də vəziyyətin son dərəcə gərginləşməsinin fərqindədirlər.

Heç şübhəsiz ki, Azərbaycanın müdafiə naziri Zakir Həsənovun fevralın 3-də ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşiki qəbul etməsi də təsadüfi deyil.

Görüşdə qoşunların təmas xəttindəki mövcud vəziyyət, keçirilən monitorinqlərin nəticələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparılıb.

**Bu arada ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin də bəyanatı diqqətçəkəndir. Ceyms Uorlik "Amerikanın səsi" radiosuna müsahibəsində deyib:** "ATƏT-in Minsk Qrupunun həmsədrləri son həftələrdə Dağlıq Qarabağ regionunda baş verən gərginlikdən narahatdırlar".

**Son vaxtlar qoşunların təmas xəttində və Ermənistan-Azərbaycan sərhədində baş vermiş zorakılıq hallarından, atəşkəsin intensiv şəkildə pozulmasından ciddi narahatlıq keçirdiklərini söyləyən amerikalı həmsədr bildirib ki, son insidentlər və zorakılıq hallarının artması regionun bütün ölkələri üçün fəsad törədir:** "Biz tez bir zamanda regiona səfər etmək, tərəflərlə, o cümlədən prezidentlərlə danışıqlar aparmağı planlaşdırırıq".

***






Burada daha bir diqqətçəkən nüans var. ATƏT-in Minsk Qrupunun fəaliyyətinin indiyədək heç bir fayda verməməsi səbəbindən Azərbaycan tərəfinin "5-lik Sədrlər Şurası" təklifi ilə çıxış etməsi, belə görünür ki, həmsədr ölkələri ya qıcıqlandırıb, ya da onları aktivləşməyə vadar edib.

Nəzərə çatdıraq ki, ATƏT PA-da Siyasi məsələlər və təhlükəsizlik komitəsi sədrinin müavini, deputat Azay Quliyev bir neçə gün öncə maraqlı açıqlama vermişdi. O bildirib ki, ATƏT PA-nın bu ay Vyanada keçiriləcək qış sessiyasında həm Almaniyanın, həm də Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Minsk Qrupu çərçivəsində həll prosesinə yaxından cəlb edilməsi və hazırda 3 ölkədən ibarət həmsədrlik institutunun dəyişdirilərək "5-lik Sədrlər Şurası" (SŞ) ilə əvəz olunması haqqında məsələ qaldırmağı planlaşdırır.

Burada söhbət ondan gedir ki, Türkiyə və Almaniyanın da vasitəçilər sırasına daxil edilməsi məqsədəmüvafiq hesab edilir. Türkiyə və Almaniya bu məsələdə artıq mövqelərini ifadə ediblər. Bir neçə gün öncə Türkiyə Böyük Millət Məclisinin üzvləri Atilla Kaya və Sinan Oğan bu təklifin reallaşmasının zəruri olduğunu qeyd ediblər. Onlar qeyd ediblər ki, sülh danışıqlarının nəticə verməsi üçün Türkiyənin həmsədrlər sırasında olması çox mühümdür.

Türkiyə Xarici İşlər Nazirliyi də fevralın 3-də Minsk Qrupunun həmsədrlik institutunun dəyişdirilərək "5-lik Sədrlər Şurası" olması məsələsinə mövqeyini açıqlayıb.

**Türkiyənin Xarici İşlər Nazirliyindən "Trend"ə verilən eksklüziv açıqlamada bildirilib ki, ATƏT-in Minsk Qrupunun bir üzvü olaraq Türkiyə Cənubi Qafqazda sülh, sabitlik, rifah və geniş əməkdaşlığa ciddi maneə olan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün atılan bütün addımları yaxından izləyir:** "Türkiyə problemin həlli məqsədilə Minsk Qrupu çərçivəsində davam edən səylərə töhfə vermək üçün çalışır. Minsk Qrupunun mövcud formatı daxilində bütövlükdə problemin həlli istiqamətində atılan addımları da dəstəkləyir və bu istiqamətdə cəhd göstərir".

**Türkiyə XİN-dən qeyd olunub ki, bütün bunlarla yanaşı, istər Minsk Qrupu formatında, istərsə də digər formatlarda üçüncü ölkələrlə münasibətlərdə Türkiyə milli məsələsi olan Dağlıq Qarabağ problemini hər zaman gündəmə gətirir:** "Qardaş Azərbaycanın bu önəmli probleminin beynəlxalq ictimaiyyətdə öz aktuallığını qoruması və problemin ən tez bir zamanda həlli üçün çalışmalarımızı davam etdirəcəyik. Azərbaycanın qaldırdığı Minsk Qrupu həmsədrlərinin sayının üçdən beşə çatdırılması *(ABŞ, Rusiya, Fransa, Türkiyə və Almaniya)* məsələsinə gəlincə isə, bu barədə hələki əlimizdə hər hansı bir məlumat yoxdur. Türkiyənin Dağlıq Qarabağ məsələsində siyasətinin qəti olduğunu, Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar olması üçün bu problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə inandığımızı bir daha vurğulayırıq".

"Almaniya 1994-cü il atəşkəs razılaşmasının son vaxtlar ardıcıl olaraq pozulmasından dərin narahatdır". Bunu isə APA-nın sorğusuna cavab olaraq Almaniya Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

**Sitat:** "Almaniya Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində əməkdaşlığını növbəti il ATƏT-ə sədrliyi zamanı da davam etdirəcək. ATƏT-in Minsk Qrupunun üzvü kimi, Almaniya həmsədrlərin davamlı vasitəçilik səylərini dəstəkləyir. Biz Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında ərazi bütövlüyü, mübahisələrin sülh yolu ilə həlli və öz müqəddəratını təyinetmə prinsiplərinə etibarımızı tamamilə saxlayırıq", - deyə açıqlamada qeyd olunur.

**Almaniya XİN bəyan edib ki, Berlin hazırda münaqişə tərəflərinin də dəstəklədiyi Minsk formatına alternativ görmür:** "Eyni zamanda Minsk Qrupunun səylərinə dəstək vermək üçün biz Avropa İttifaqının da daha səmərəli şəkildə prosesə cəlb olunmasını istəyirik. Məsələn, Avropa İttifaqı etimad yaradacaq tədbirlər vasitəsilə nizamlanma prosesində iştirak edə bilər".

**Son zamanlar cəbhədəki gərginliyin artmasından narahatlıq ifadə edən Almaniya XİN əlavə edib:** "Biz davamlı dialoqlar zamanı tərəfləri çağırırıq ki, monitorinq mexanizminin pozuntuları daha yaxşı araşdıracağı və qarşısını alacağı ilə razılaşsınlar. Minsk prosesinin irəliləməsi üçün əsas şərtlərdən biri də atəşkəs sazişinə hörmət etmək və dəstəkləməkdir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: M.MAHRIZLI

YENİ MÜSAVAT
N 25 (6053) 4 fevral 2015

# Dərbənddə mənimsənilən milyonların izi generala aparır

## Nəcməddin Sadıkovun adamı pullarla birgə yoxa çıxıb; bu şəhərdə hələ də Azərbaycanın konsulluğu yoxdur, amma küçələrində Azərbaycan vətəndaşı olan "bomj"lar var; əməkdaşlarımız qədim Azərbaycan şəhərindəki vəziyyətdən yazır...

**Dərbənd 2 min illik yubileyinə hazırlaşır. Amma necə hazırlaşır, bu, artıq sual doğurur. Çünki şəhərin abadlaşdırılması, yolların sahmana salınması və mədəniyyət ocaqlarının restavrasiya olunması Allahın ümidinə qalıb.**

Təxminən 8 ay sonra dərbəndlilər yubileyi qeyd etməlidir. Şəhərdə yaranmış vəziyyət isə heç də ürəkaçan deyil.

Azərbaycan hökumətinin Dərbənddə Heydər Əliyev prospektinin təmirinə ayırdığı pullar yoxa çıxıb. Yolların təmiri üçün nəzərdə tutulan vəsait mənimsənilib. Prospektdə təmir işləri yarımçıq dayanıb. Podratçı şirkətlərə vəd olunan maliyyə vəsaiti verilməyib deyə, işlər elə ilk aydaca, 2014-cü ilin oktyabrında dayandırılıb.

Dərbənddə yaşayan azərbaycanlılar deyir ki, iş başlamazdan əvvəl vergilər naziri Fazil Məmmədov şəhərə gəlib, görüləcək işlərlə bağlı toplantılar keçirib. Görüləcək işlər üçün vəsait isə Müdafiə Nazirliyinin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovun vasitəsilə iş icraçılarına çatdırılmalı imiş. Bu, təsadüfi deyil. N.Sadıkov Dərbənddə anadan olub, orada ailə həyatı qurub. Həyat yoldaşı Dərbənddə yaşayan ləzgi millətinin nümayəndələrindən olub. Bir neçə il əvvəl N.Sadıkova Dağıstanın Milli Qəhrəmanı fəxri adı verilib, Dərbənd küçələrindən biri onun adını daşıyır. Azərbaycan hökumətinin ayırdığı böyük vəsaiti N.Sadıkova etibar etməsini şərtləndirən bu amillərdir.

Dərbəndlilərin sözlərinə görə, görüləcək işlərin planı təsdiqlənəndən sonra işlərin icrası istiqamətində addımlar atılıb. Dərbənddə tikiləcək olimpiya kompleksinin özülü qazılıb, Azərbaycanın mərhum prezidentinin adını daşıyacaq prospektdə əsaslı təmin aparılmaq üçün söküntü işlərinə başlanıb, Nizami Gəncəvi adına parkda hazırlıq işlərinə start verilib. 1 ayın tamamında isə məlum olub ki, N.Sadıkovun qohumu, pulları iş icraçılarına verəcək Aydın Mürsəlov ortalıqda yoxdur. Nəticədə H.Əliyev prospekti, o cümlədən olimpiya stadionu, teatr binasının tikintisi yarımçıq qalıb.

Nizami parkı da bərbad gündədir. Nizaminin heykəlini yandırıb, barmaqlarını sındırıblar, qırmızıya boyayıblar. İşlər dayandırıldığı bir vaxtda Dərbənddə belə məlumatlar yayılıb ki, guya İdman Olimpiya Kompleksinin tikintisi üçün özül qazılan zaman oradan insan skeletinin qalıqları aşkarlanıb. Ona görə də tikinti dayandırılıb. Tikinti üçün başqa ərazinin ayrılacağı deyilir.

Azərbaycanlılar Dərbənd rayonu ərazisində yer ayrılmasını təklif edir. Hələ keçmiş rəhbər Qurban Qurbanovun dövründə kompleksin elə rayonda tikilməsi planlaşdırılırdı. Ümumiyyətlə, Dərbənddə görüləcək iş çoxdur. İlk növbədə yolların təmirinə ciddi ehtiyac var. Küçələr çala-çuxur, kələ-kötür vəziyyətdədir. Dərbənd rəhbərliyi isə H.Əliyev prospektinə ayrılan vəsaitin kimlər tərəfindən yoxa çıxarılmasını Azərbaycan tərəfinin araşdırmalı olduğunu hesab edir. Hər halda, N.Sadıkov nə baş verdiyinə aydınlıq gətirməlidir.

Dərbəndlilər N.Sadıkovdan danışanda onun həyat yoldaşı tərəfindən olan qohumlarından da bəhs edirlər. Deyirlər ki, generalın qohumları arasında "Sadval"ın rəhbərliyində təmsil olunan şəxslər var.

Generalın onlarla əlaqəsinin olub-olmadığı məlum deyil. Az əvvəl, Qurban Qurbanov vəzifədən uzaqlaşdırılandan sonra Sadıkovun bacısı Gülnaz Hüseynova Dərbəndin 4 saylı məktəbinin direktoru təyin olunub. Bütün məktəblər bərbad olsa da, bu təhsil ocağı qısa müddətdə təmir edilib. Generalın digər bacısı Gülnarənin həyat yoldaşı isə Dərbənd peşə məktəbinin direktoru, bacısı qızı bağça müdirəsi vəzifəsinə təyinat alıblar. General Sadıkovun Dərbənddə güclü dayaqları var. N.Sadıkovu Dərbənddəki yaxın ətrafı "Dima" deyə çağırırlar.

***

Azərbaycanlılar şəhərin parklarına, küçələrinə digər millətin şairlərinin, tanınmışlarının adlarının verilməsinə etirazlarını da bildirirlər. Onlar Dərbəndin qədim Azərbaycan şəhəri olduğunu və əhalinin əksəriyyətini də azərbaycanlılar təşkil etdiyini vurğulayırlar. Odur ki, bu prosesin aparılmasını düzgün saymırlar. Yubiley ərəfəsində narazılıq doğuran başqa bir məsələ Dərbəndin yaşı ilə əlaqədardır. Şəhərin 5 min il yaşı olduğu halda, 3 min il cavanlaşdırılıb. 4 il əvvəl İmam Yarəliyev Dərbəndin meri təyin olunandan sonra şəhərin yaşını 2 min edib.

Rus təhqiqatçısı Qudryatev Dərbəndin tarixini araşdırıb. O, şəhərin 5 min yaşda olduğunu sübut edib. Tarixçinin davamçısı Hacı Murtuzəliyev isə bu iddiaya qarşı çıxıb və 2 min yaşı olduğunu bildirib. İ.Yarəliyev Rusiya Elmlər Akademiyasına üz tutub. O, şəhərin dəqiq yaranma tarixinə dair rəy almaq istəyib. Bu məsələ akademiyada müzakirə olunarkən Qudryatevin deyil, davamçısı Murtuzəliyevin rəyi əsas götürülüb. Yəni Dərbənddə əhalinin məskən saldığı 2 min il əvvəl olduğu qənaətinə gəlinib.

Azərbaycanlıların digər problemi isə sənədləşmə ilə bağlıdır. Rusiyanın başqa şəhərlərindən Bakıya gəlmək istəyənlər sənədlərdə yaranmış problemlərə görə yenidən Moskvaya qayıtmalı olurlar. Bu da çoxunun büdcəsinə uyğun deyil. Nəticədə gedə bilməyib qalırlar. Odur ki, Dərbəndin küçələrində Azərbaycan vətəndaşı olan "bomj"lar var. Onlar sənəd probleminə görə nə Azərbaycana gələ bilir, nə də pulsuzluqdan Moskvaya səfirliyimizə gedə. Bu mənada Dərbənddə konsulluq açılması vacib hesab edilir.



Qiymətlərə gəlincə, şəhəri gəzərkən ərzaq məhsullarının Azərbaycan manatına münasibətdə ucuzlaşdığının şahidi olduq. Rublun günbəgün ucuzlaşması yerli əhalinin alıcılıq qabiliyyətini aşağı salır, qida məhsullarının, yanacağın qiymətinə kəskin surətdə təsir edir. Hazırda Dərbənddə nərə balığı 8-10 manat, dana əti 3 manat 50 qəpik, qoyun əti isə 4 manatdır. Yanacağın qiyməti neftin qiymətinin enib qalxmasına bağlıdır deyə, gün ərzində qiymət 31 qəpikdən 37-38 qəpiyə qədər dəyişir. Dərbənddə yaşayanlar avtomobillərində yanacaq kimi əsasən qazdan istifadə edirlər. Bu yanacaq növü alıcıya 1 litr üçün 5-6 qəpiyə başa gəlir. Mavi yanacaq səhhət üçün zərərli olsa da, dolanışığı əkinçilikdən çıxan dərbəndlilər buna o qədər də fikir vermirlər. Şəhərin qonaqlarını cəlb edən "Narın Qala" kompleksinin dar küçələrində maşınlardan ayrılan tullantı qazın boğucu təsiri hiss olunur. Memarlıq üslubu ilə Bakıdakı İçərişəhəri təkrarlayan "Narın Qala" kompleksinin ətrafında aparılan arxeoloji qazıntılar da Dərbəndin tarixinin qeyd ediləcək yubiley yaşından daha artıq olduğuna dəlalət edir.



Amma Rusiya Milli Elmlər Akademiyası şəhərin tarixini araşdırmağa həvəsli görünmür. Rus tarixçilərinin bu iş Azərbaycan Milli Elmlər Akademiyasının görməli olduğu haqda səsləndirdikləri fikirlər isə Bakıda eşidilməmiş qalıb. Tarix üzərində qurulan Dərbəndin yaşı beləcə cavanlaşdırılıb.










***

Dərbənddən Bakıya qayıdanda benzin artıq 33 qəpik olmuşdu. Dərbənd azərbaycanlısı olan sürücü insanların bu vəziyyətin nə qədər davam edəcəyini və necə olacağını proqnozlaşdıra bilmədiklərini deyib ABŞ-ın qarasınca deyinirdi...



Rublun dəyərdən düşməsi Azərbaycandan Dərbəndə gedib ərzaq məhsulları almaq istəyənlərin işinə yarayıb. Azərbaycan vətəndaşı olanlar Dərbəndə üz tutub oradan yağ, qənd, kolbasa, konfet və s. qida məhsulları alıb geri dönürlər. Ancaq vətəndaşlarımızın alış-veriş sevinci çox çəkmir. Samur Sərhəd-Keçid məntəqəsində yaşananlar Dərbənddə bazarlıq edib Azərbaycana qayıdanlarda peşmançılıq yaradır. Bu barədə isə növbəti reportajda bəhs edəcəyik.



❑ **"Yenì Müsavat"ın Reportyor Qrupu, Dərbənd**

YENİ MÜSAVAT
N 25 (6053) 4 yanvar 2015



# Qız qalasının başında kürü və şampan ziyafəti ortalığı qarışdırdı

## Hotel təmsilçisi şikayət edir: "Hər təklifin öz alıcısı var. Siz bazara gedəndə xırda bir şey də ala bilərsiz, bahalı bir şey də... "; "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu şübhəli şəkildə susur

**Bakıda yerləşən "Four Seasons Hotel Baku" 14 fevral Sevgililər Günü ilə bağlı ağlasığmaz təklif paketi hazırlayıb. Təklif paketinin ağlasığmazlığı onun qiymətindədir - 100 min manat. Sevgililər fevralın 14-də hotelin hesabına dünyanın istənilən nöqtəsində öz evlərindən limuzinlə aeroporta çatdırılacaq və birinci sinif təyyarə ilə uçacaqlar. Burada da onlar hotel tərəfindən təqdim olunmuş limuzinlə hərəkət edəcəklər. Sevgililərin ixtiyarına hotelin ən gözəl otağı olan prezident lüksu təqdim ediləcək.**

Qeyd edək ki, bu otaq Azərbaycanda ən bahalı hotel otağı sayılır və onun sutkalıq qiyməti təqribən 11 min manatdır. Aksiya çərçivəsində sevgililər üçün Qız qalasında şampan şərabı və kürü süfrəsi açılacaq. Sevgililər hotelin təqdim etdiyi unikal masaj və ultra nəmləndirici südlü vannadan həzz ala biləcəklər.

Təkliflər paketində qeyd olunub ki, qeyri-adi romantik ab-hava prezident lüksünün qonaqlarını təəccübləndirəcək. "Otağınız "Avropa hotelləri arasında ən yaxşı çiçək dizaynı" nominasiyasında qalib gələn floristimiz tərəfindən valehedici çiçək kompozisiyaları və şamlarla bəzədiləcək"-deyə təklifdə bildirilir.

**Aksiya çərçivəsində sevgililərə bahalı "Cartier" saatları hədiyyə ediləcək:** "Bu sehrli Sevgililər Gününü daim xatırlamaq üçün sizə hədiyyə olunan "Cartier" saatlarının üzərində adlarınız və burada keçirdiyiniz vaxt həkk olunacaq».

Qeyd edək ki, saatların qiyməti 5-6 min manatdan 10-20 min manat arasında dəyişir. Qonaqlara bir neçə model təklif ediləcək və onlar istədikləri modeli özləri seçəcəklər. Təklifin qiyməti 100 000 manatdır.

Təklif ictimailəşən gündən etibarən yerli mediada və sosial şəbəkələrdə buna kəskin etirazlar başlandı. İnsanlar bunu harınlıq, qudurğanlıq və Azərbaycan insanını aşağılama kimi qiymətləndirdilər. Belə ki, orta aylıq əməkhaqqının təxminən 400 manat olduğu bir ölkədə bir günlük lüksə görə 100 min manatlıq təklifin verilməsi ironiya, qəzəblə müşayiət olundu. Bütün bunlarla yanaşı, təklifdə Qız Qalası bəndinin olması da təəccübə səbəb oldu. İçərişəhər Dövlət Qoruğunun ərazisində olan bu tarixi abidənin biznes vasitəsinə çevrilməsi suallar yaratdı. Bu, necə mümkün ola bilər?

**"Yeni Müsavat" da öncə təklifin müəllifi olan "Four Seasons Hotel Baku"nun PR direktoru Aynur Məmmədova ilə bu mövzuda geniş söhbət etdi. A.Məmmədova müxbirimizlə söhbətində dedi ki, əslində bu təklif birbaşa Qız qalası ilə bağlı deyil:** "Sadəcə, orda şampan içmək təklif olunmuşdu. Bu təkliflər paketinin əsas məqsədi hotelin otaqları və oradakı çox bahalı bir saatda Sevgililər Gününü keçirmək idi. Amma jurnalistlər təbii ki, reytinq qazanmaq üçün mövzunu fırlatdılar. Təklifdə sətiraltı qeyd olunub ki, birinci sinif təyyarə biletləri də verilir. Bu isə o deməkdir ki, təklif daha çox xarici ölkə vətəndaşlarına yönəlib. Məqsəd təbliğatdır ki, bizdə, Azərbaycanda belə gözəl sevgililər günü keçirmək olar. Bu, daha çox PR aksiya idi, ölkəmizi tanıtmaq məqsədi daşıyırdı".

**A.Məmmədova xatırlatdı ki, ötən il nikah mərasimi hazırlamaq üçün Qız qalası ilə gözəl bir təklif hazırlayıblar. Müsahibimizin sözlərinə görə, Eyfel qülləsində, eləcə də dünyanın bir çox tarixi məkanlarında, qəsrlərdə belə tədbirlər keçirilir. Qiymətin bahalığına gəlincə, müsahibimiz onu da dəyərləndirdi:** "Təklifin qiyməti 100 min manatdır. Çünki onun içindəki prezident otağı 12 min manatdır. Burda bahalı saatlar var. Şampan, limuzin və bilet. Hamısını toplayanda gəlib elə bizim dediyimiz qiymətə çıxır.

Hələ ki təklifə ciddi mənada reaksiya verən olmayıb. Daha çox danışırlar. Amma konkret bu təklif paketini almaq istəyən yoxdur. Bu, piar aksiyadır və daha çox xaricə hesablanıb".

**Paket qiymətinin Azərbaycan reallığında ağlasığmazlığı iddialarına da müsahibimizin özünəməxsus cavabı oldu:** "Hər təklifin öz alıcısı var. Siz bazara gedəndə xırda bir şey də ala bilərsiz, bahalı bir şey də. Adi mağazadan da özünüzə geyim ala bilərsiz, bahalı mağazadan da. Bu, PR aksiyadır. Amma jurnalistlər bu xəbəri elə təqdim ediblər ki, guya tədbirin özü Qız qalasında keçirilir və pul da ona görə verilir".

**Əməkdaşımızın "14 fevrala qədər müştəri olmadığını görüb, qiymətləri aşağı sala bilərsizmi" sualına cavabda A.Məmmədova dedi ki, belə bir məqsədləri yoxdur:** "Bayaq da dediyim kimi, bu, PR aksiyadır. Əslində hotelin özündə, restoranlarında 14 fevralla bağlı tədbirlərimiz var. Sırf bu dəqiqə PR ona yönləndiriləcək. Amma indi insanlar bu aksiyanı o qədər şişirtdi ki, ayın 14-də keçiriləcək tədbirlər işıqlandırılmır. Bu gün-sabah yenə diqqəti həmin tədbirlərə yönləndirəcəyik. Hər hoteldə, restoranda olduğu kimi bizdə də 14 fevralla bağlı şam yeməyi, musiqili tədbir nəzərdə tutulub".



**A.Məmmədova qoruğun ərazisinə daxil olan tarixi bir abidənin içində kürülü-şampanlı bir qutlamaya necə icazə almaları ilə bağlı sualı da cavabladı. Dedi ki, təmsil etdiyi hotelin Qız qalası ilə müqaviləsi var:** "Orda nikahların, nişanların keçirilməsi ilə bağlı müqaviləmiz var. Eksklüziv olaraq, Eyfel qülləsində və ya dünyanın bir çox tarixi məkanlarında hansısa tədbirlər keçirilir. Əgər nikah mərasimidirsə, bu, milli adət-ənənələrimizə uyğundur. Çünki Qız qalası tarixi bir abidədir, adətlərimiz var. Orda kəlağayıda, milli geyimdə nikah mərasimi keçirilsə, çox gözəl bir şey ola bilər. İstənilən şəxs Qız qalasının başına çıxıb, orda nəyisə qeyd edə bilər. Bizim yazdığımız da təklifin içində balaca bir bənd idi".

Mövzu ilə bağlı "Yeni Müsavat" İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun mətbuat katibi Rahib Azəri ilə əlaqə yaratdı. Hotel təmsilçisinin haqqında danışdığı müqavilə və bunun nə dərəcədə qanuni olması ilə bağlı suallarımızı R.Azəriyə ünvanlasaq da, o, hazırda çəkilişdə olduğu üçün onları cavablandıra bilməyəcəyini dedi. Mətbuat katibi bizi qoruğun Nərmin adlı əməkdaşına yönləndirsə də, xanım sualımızı gün ərzində cavablandırma vədi verib, sonradan zənglərimizə cavab vermədi.

Mövzunu davam etdirəcəyik.

❑ **Sevinc TELMANQIZI**

# Ölkədə ət ucuzlaşdı

## Ekspertlər bunun bir neçə səbəbdən baş verdiyini deyir; amma yazda bahalaşma olacağı da istisna edilmir





**Bir neçə gündür ki, ölkədə mal və qoyun ətinin qiymətində ucuzlaşma baş verib. Satıcılar, eləcə də ekspertlər bunu fərqli amillərlə bağlayırlar. Əməkdaşımız paytaxtda bazar və dükanlarda olub və ucuzlaşmanın səbəblərini soruşub. Satıcı Elman bildirib ki, ucuzlaşma bir həftədir ki, davam edir: "Rayonlarda ucuzlaşma olduğundan, Bakıda da qiymət enib. Hazırda mal ətini 7 manat 50 qəpiyə, qoyun ətini 9-10 manata satıram". Qəssab Əli isə bildirir ki, ucuzlaşmanın səbəbi otun qiymətinin artmasıdır: "Camaatın ot-ələf almağa pulu yoxdur. Ona görə saxladıqları heyvanların sayını azaldırlar, çoxu hamısını satır". 8-ci kilometr bazarında ət satanlar isə bildirirlər ki, mal ətinin qiyməti 7 manata qədər enib: "Yaxın müddətdə də qiymətin belə olacağı gözlənilir. Bahalaşma gözlənilmir".**

"Trend"ə daxil olan məlumata görə isə son vaxtlar kənd rayonlarında iri və xırda buynuzlu heyvanların və ətin qiyməti ucuzlaşıb. Bunu şərtləndirən bir sıra səbəblər var. Səbəblərdən biri kimi idxalın artımı göstərilir. Bunu iqtisadi ekspertlər də təsdiq edirlər. Açıqlanan statistikaya görə, 2014-cü ildə əvvəlki illə müqayisədə Azərbaycana idxal olunan ət 28,2 faiz artıb, yəni 2013-cü ildə ölkəyə 15 milyon 181 min dollar məbləğində ət idxal olunmuşdusa, 2014-cü ildə bu göstərici 19 milyon 460 min dollar olub. Digər səbəb kimi, təbii şərtlər göstərilir. İl quraqlıq keçdiyi üçün ot və digər yemin tədarükü həddən artıq bahalaşıb və bu bahalaşmanın qarşısında heyvan saxlamaq, mal-qara əti tədarük etmək xərcləri də təbii ki, artıb. Bu isə heyvanların diri və ya ət şəklində kütləvi surətdə bazara satışa çıxarılmasına səbəb olub. Bu isə avtomatik olaraq qiymətlərin düşməsi deməkdir.

Səbəblərdən biri də kənd rayonlarında yas yerlərində ehsana qoyulan qadağadır. Qadağalara qədər yas yerlərində əsasən mal əti olmaqla iri və xırda buynuzlu heyvan ətindən bişirilən yeməklər ehsan verilirdi. Adətə görə, hər adam üçün 200-250 qram ət nəzərdə tutulurdu.

Yəni əgər 500 nəfər yas yerinə gəlirdisə, bu, təxminən 125 kq ət demək idi. Bu çəki də təqribən bir baş mal və ya 5 ədəd xırda heyvan deməkdir. Yəni bir gündə rayon ərazisində 5-6 yas mərasimi olardısa, bu rəqəmin nə qədər olduğu bəllidir.

Belə olan şəraitdə avtomatik olaraq ət məhsulları, o cümlədən xammalı ölkə ərazisində əldə edilən və mal ətindən hazırlanan konservlər, kolbasa, sosislər və digər məhsulların da qiyməti düşməlidir və bu proses təbii ki, restoran, kafe, iaşə obyektlərində, ən əsası da şadlıq evlərində özünü göstərməlidir.

**Ekspertlər isə bildirirlər ki, ucuzlaşma uzunmüddətli olmaya bilər. Natiq Cəfərli musavat.com-a açıqlamasında bildirib ki, bu ucuzlaşmanı tək bir səbəb üzərində qurmaq doğru deyil:** "Müxtəlif səbəblərin cəmindən qiymətin enməsi baş verir. Həm idxalın artması müşahidə edilir, bunun da təsiri var. Regionlarda alıcılıq qabiliyyəti kəskin şəkildə azalıb. Bu da əsasən Rusiya ilə bağlıdır. Rusiyadan ölkəyə, ailələrinə göndərilən vəsaitin həcmi aybaay azalır. Bunun özünün də bazara ciddi təsiri var. Təbii ki, yas mərasimlərinə qoyulan qadağa da təsirsiz deyil. Bazarın müəyyən seqmentində yas mərasimləri üçün kəsilmiş mal-qara və heyvanların müəyyən çəkisi var idi. Bu bir neçə səbəbi üst-üstə gəldikdə, ölkədə ət məhsullarının qiymətinin aşağı enməsi baş verir. Digər səbəb isə ola bilər ki, Rusiyada və Gürcüstanda milli valyutaların ucuzlaşması ilə əlaqədar ciddi şəkildə qiymətlər aşağı enib. Yəni Azərbaycan manatına çevirdikdə ciddi şəkildə fərq yaranır. Bu amillərin məcmusu, cəmi sonda Azərbaycanda ət məhsullarının qiymətini endirib".

**N.Cəfərlinin sözlərinə görə, qiymət enməsi uzunmüddətli olmaya bilər:** "Əgər doğrudan da yemin bahalaşması ilə əlaqədar əhali mal-qaranın bir hissəsindən imtina edib kəsimə verirsə, bir neçə aydan sonra əksinə prosesi görə bilərik. Mal-qaranın sayının azalması gələcəkdə qiymətin kəskin şəkildə artması ilə nəticələnə bilər. Hökumət bunu diqqətdə saxlamalıdır".

**Ekspert Qubad İbadoğlu isə qeyd edib ki, mal ətinin qiymətinin ucuzlaşması səbəblərindən biri də ehsan qadağasıdır:** "Azərbaycanın kənd regionlarında mal ətinin qiymətinin ucuzlaşmasını şərtləndirən müxtəlif səbəblər vardır. Onlardan biri idxalın artımıdır. Qiymətin ucuzlaşmasına təsir göstərən başqa bir amil xüsusilə də kənd rayonlarında ehsan qadağasıdır. Bu səbəbdən əsasən də mal ətinə olan tələbat aşağı düşüb. Ətin qiymətinin ucuzlaşmasında rol oynayan digər amil ailənin büdcəsinin gəlirlərinin azalması ilə əlaqədar olaraq ölkədə alıcılıq qabliyyətinin aşağı düşməsidir. Nəhayət, ötən il quraqlıq olmasına görə yaranmış yem qıtlığı hazırda onun maksimum səviyyədə bahalaşmasına və bu da iri buynuzlu mal-qaranın saxlanması xərclərinin artmasına gətirib çıxarıb".

**Ekspertin sözlərinə görə, bazarların qarşılıqlı əlaqəsinə görə, mal əti bazarında baş verən ucuzlaşma davamlı xarakter alarsa, onda yaxın vaxtlarda qoyun əti, quş əti və balıq, eləcə də mal ətindən hazırlanan kolbasa, sosiska, konservlərin və sair məhsulların, həmçinin kafe və restoranlarda yeməklərin də qiymətində dəyişikliyə gətirib çıxarmalıdır: "Təbii ki, ölkədə bazar iqtisadiyyatı qanunları işləyərsə!".**

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 25 (6053) 4 fevral 2015

# Böyükşor sakinləri yollardan və kanalizasiyadan şikayətçidir

"Bizi boş vədlərlə yola salırlar..."



**Bakının Nərimanov rayonunun Böyükşor adlanan ərazinin 38/10 küçəsinin sakinlərindən bir qrupu redaksiyamıza müraciət edib. Onlar küçələrindəki kanalizasiya xətlərinin dağıldığı və yolların bərbad halda olduğunu bildirirlər.**

**Şikayətçi Pənah Pənahlının** sözlərinə görə, yollarının düzəlməsi üçün dəfələrlə aidiyyəti qurumlara müraciət etsələr də müsbət nəticə əldə edə bilməyiblər: "Nərimanov Rayon İcra Hakimiyyətində qəbulda olsaq da, bizə boş vəddən başqa bir söz deyilmədi. Hələ də Böyükşor qəsəbəsi P/YUA 38/10 küçəsinin yolları və kanalizasiya xətləri düzəlməyib. Həmin ərazidə "Spark" Beton Zavodu, İnci Şirkəti və Asfalt Zavod kimi iri müəssisələr yerləşir. Bu şirkətlərə, xüsusən də "Spark" betona məxsus ağır tonlu maşınlar tərəfindən yollar bir az da bərbad hala salınıb, kanalizasiya xətləri dağıdılıb. Bir neçə aydan sonra bu ərazidə keçirilməsi planlaşdırılan Avropa oyunlarına görə isə yaşadığımız bərbad yeri hər tərəfdən hasara alaraq varlığımız gizlədilir".

Şikayətçilər qəzet vasitəsi ilə prezidentə müraciət edərək yollarındakı bu problemin aradan qaldırılmasını xahiş edirlər.

❑ **Günel MANAFLI**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

-----------------------------------------------------------------------

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

-----------------------------------------------------------------------

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**




# Həsən Dəmirçinin məhkəməsindən nə xəbər var?

## Zəlimxan Məmmədli: "Gedişatı izləyirik"



**Bu günlərdə Ustad Dəmirçinin həbs olunması ilə bağlı yayılan xəbər Azərbaycanda da narahatlığa səbəb oldu. Bu barədə dərc etdiyimiz yazıdan sonra oxucular redaksiyamıza müraciət edir. Bunu nəzərə alaraq məsələnin son gedişi ilə maraqlandıq.**

"Borçalı" İctimai Cəmiyyətinin rəhbəri Zəlimxan Məmmədli "Yeni Müsavat"a bildirib ki, informasiya necədirsə, hələ ki olduğu kimi qalır: "Onun özü ilə əlaqə saxlaya bilməsək də, hansısa vasitələrlə məlumat əldə edə bilmişik. Bu doğrudur ki, Həsən ağa Dəmirçinin aldığı mükafatla bağlı İran hakimiyyətində şübhələr yaranıb. Bir insanın sərbəst davranışının, xüsusilə millətinə, xalqına sayğı, dəyər nümayiş etdirməsinin altından siyasət axtarılmasını yanlış hesab edirik. Hər halda, məsləhət belə olunub ki, bu etapda biz sadəcə məhkəmənin gedişatını izləyək. Əgər orda qanunsuzluqlar olacaqsa və məsələləri siyasətləşdirməyə çalışacaqlarsa, təbii ki, biz buna münasibətimizi bildirəcəyik".

Qeyd edək ki, ötən ilin 25 dekabr tarixində Dünya Azərbaycanlılarının Həmrəylik Günü çərçivəsində "Borçalı" Cəmiyyətinin təşəbbüsü ilə tədbir keçirilmişdi. Tədbirdə bir çox tanınmış ziyalılar, o cümlədən Həsən ağa Dəmirçi "Türklüyə Xidmət Mükafatı"na layiq görülmüşdü. "Yeni Müsavat"ın əməkdaşına açıqlama verən Ustad Dəmirçi bildirmişdi ki, adıçəkilən mükafata görə İran hakimiyyəti tərəfindən təzyiqlərə məruz qalıb. Pasportu əlindən alınan Həsən Dəmirçidən mükafatın da onlara verilməsi tələb olunub. Lakin muğam ustası mükafatı verməkdən imtina edib. Daha sonra proseslərin davamı kimi H.Dəmirçi məhkəməyə verilib.

❑ **Xalidə GƏRAYEVA**


*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- *Əla tələffüz və güvənlə danışmaq*
- *Real ingiliscə söhbətlər*

BONUS
english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34


# Şeyxin yaxın adamının evindən 100 min manat oğurlandı

**Fevralın 1-də Qafqaz Müsəlmanları İdarəsinin Salyan və ətraf 6 rayon üzrə nahiyə qazısı, şeyxin yaxın adamı kimi tanınan Hacı Hüsnü Həsənovun evi qarət edilib.Virtualaz.org saytının Salyandakı mənbələrdən əldə etdiyi xəbərə görə, oğru və ya oğrular nüfuzlu din xadiminin rayonun Qarabağlı kəndindəki evindən 100 min manatdan çox nağd pul, külli miqdarda qızıl-zinət əşyaları, habelə müvafiq lisenziyaya malik "Vinçester" markalı bir ədəd ov tüfəngi aparıb.**

Oğrular (və ya oğru) Hacı Hüsnü Həsənovun ailə üzvləri ilə birlikdə İranda səfərdə olmasından istifadə edərək sahibsiz mənzilə daxil olublar. H.Həsənov qonşu ölkəyə müalicə məqsədi ilə gedibmiş.

Məlumatda o da deyilir ki, oğurluq faktı ilə əlaqədar Salyan Rayon Polis Şöbəsi (RPŞ) əməkdaşları tərəfindən əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

H.Həsənovun imkanlı şəxs olduğu, həmin pulları halal zəhmətlə qazandığı deyilir. Belə ki, din xadiminin həm də fermer təsərrüfatı, istixanası var, o, əsasən tərəvəzçiliklə məşğul olur. O da bildirilir ki, H.Həsənovun Rusiyada yaşayan digər qardaşı Adəm Həsənov da biznesl ə məşğuldur. Başqa bir qardaşı Knyaz Həsənov isə bir vaxtlar Salyan RPŞ-də rəis müavini olub, hazırda Masallı RPŞ-də çalışır.

Virtualaz.org saytı bu xəbərə aydınlıq gətirmək üçün Salyan Rayon Polis Şöbəsi ilə əlaqə saxlayıb. Şöbədən bu barədə heç bir əlavə məlumat vermək istəməyiblər: "Bu haqda heç bir məlumat verə bilmərik".



# Naxçıvanda qırğın kimi qəza: 4 ölü, 2 yaralı

**Naxçıvan Muxtar Respublikasında ağır yol qəzası baş verib. Kəngərli rayonu ərazisində "TOFAŞ" və "AzSamand" markalı avtomobillər toqquşub. DİN-dən "Qafqazinfo"ya verilən məlumata görə, fevralın 2-də saat 14 radələrində Kəngərli rayonunun Böyük Düz kəndində Şərur rayon sakinləri Sübhan Əsgərovun idarə etdiyi "TOFAŞ" və Natiq Əliyevin idarə etdiyi "AzSamand" markalı avtomobillər toqquşub.**

Hər iki sürücü və S.Əsgərovun sərnişinlərindən Dilarə Əsgərova və Gülarə Rzayeva hadisə yerində ölüb, digər 1 sərnişini, habelə N.Əliyevin 1 sərnişini xəstəxanaya yerləşdirilib.



# Arvadı doğuşda öldü, özü isə qəzada...

**Bir neçə gün əvvəl Gəncə-Şəmkir yolunda - Şəmkir rayon polis postunun yaxınlığında baş vermiş qəzada dünyasını dəyişən Elşad Balacayevin faciəvi həyatı yenidən sosial şəbəkələrdə müzakirəyə səbəb olub.**

Xəbərə görə, Elşad Balacayev iki il öncə həyat yoldaşını və yeni doğulacaq körpəsini itirdiyinə görə mətbuatın gündəminə düşmüşdü. Belə ki, 2013-cü ilin sentyabrında onun hamilə həyat yoldaşı Fərqanə Balacayeva və anadan olmasını gözlədikləri oğlu Gəncədə doğuş zamanı vəfat etmişdi.

E.Balacayev xanımını itirəndən sonra 3 azyaşlı qızına tək baxırdı. Qeyd edək ki, böyük qızının 6, əkizlərin isə 4 yaşı var. Həm anasız, həm də atasız qalan uşaqlara hazırda bibisi baxır.

Yaxınlarının verdiyi məlumata görə, Elşad Balacayev qəzaya yeni aldığı "Mercedes" markalı maşını ilə düşüb.

**Əlində müəyyən qədər pulu olanlar hazırkı iqtisadi şəraitdə onu hansı sahəyə yatırıb daha çox gəlir əldə edə bilərlər? Bu sual demək olar ki, əksər insanları düşündürür. Nağd vəsaitləri hansı valyuta ilə saxlamaq daha etibarlıdır? Pulu qızıla yatırmaqla gəlir gətirmək olarmı? Daşınmaz əmlaka yatırım etmək istəyənlər mənzil almalıdır, yoxsa torpaq?**

# Varlanmaq istəyirsinizsə, pulunuzu bu sahələrə yatırın...

## Vüqar Bayramovdan təkliflər: "Nağd pulu dollarla saxlayın, xaricdə daşınmaz əmlak alın, Azərbaycanda torpaq, qalan pulu külçə qızıla yatırın"

"Yeni Müsavat"ın bu suallarını **iqtisadçı ekspert Vüqar Bayramov** cavablandırıb.

Ekspert bildirib ki, vəsaitlərini nağd şəkildə saxlamaq istəyən vətəndaşlar səbət sistemini tətbiq etsələr daha etibarlı olar: "Neftin dünya bazarında ucuzlaşdığı bir dövrdə vəsaitlərin hansı valyutada saxlanılması və ya haraya yönəldilməsi ən çox müzakirə olunan və düşündürücü məqamdır. Adətən iş adamları vəsaitlərin bir qismini nağd şəkildə saxlayırlar. Bu baxımdan onlara məsləhət görərdik ki, vəsaitlərin hamısının nağd saxlanılması arzuolunan deyil. Çünki indiki məqamda vəsaitlərin nağd şəkildə saxlanılması gəlir səviyyəsinin yüksək olmasına imkan vermir. Bir qism vəsait nağd saxlanılır ki, buna hər zaman ehtiyac var. Biz vəsaitlər nağd şəkildə saxlanan zaman səbətdən istifadə edilməsini tövsiyə edirik. Xüsusən dünya valyuta bazarındakı mövcud vəziyyəti, Azərbaycanın manatla bağlı yürütdüyü siyasəti nəzərə alaraq təklif edirik ki, nağd şəkildə saxlanan vəsaitlər bir valyuta ilə deyil, bir neçə valyuta ilə saxlanılsın. Bu, avro, manat və dollar ola bilər. Biz valyuta səbəti olaraq vəsaitlərin 70%-nin dollar, 15%-nin manat, 15%-nin isə avro kimi saxlanılmasının tərəfdarıyıq ki, bu da valyuta bazarındakı intensiv dəyişikliklərdən həmin vəsaitlərin sığorta olunmasına və onların dəyərinin itməsinin qarşının alınmasına şərait yaradacaq".

**Vüqar Bayramovun sözlərinə görə, daşınmaz əmlaka vəsait yatırmaq istəyən şəxslər üçün Rusiya şəhərlərində mənzil almaq daha əlverişli olar:** "Vəsaitlərin investisiyaya yönəldilməsinə gəlincə, Bakıda daşınmaz əmlaka yönəldilməsi cəlbedici deyil. Çünki alıcılıq qabiliyyətinin aşağı düşməsi və tələbin azalması fonunda daşınmaz əmlakın qiymətində azalmaların olacağı proqnozlaşdırılır. Bu baxımdan vəsaiti Bakı şəhərində daşınmaz əmlaka, xüsusən də mənzillərin və ya ofislərin alınmasına yönəltmək doğru deyil. Amma bununla yanaşı, bəzi qonşu ölkələrdə, o cümlədən Rusiyada daşınmaz əmlakın qiymətində azalmalar var. Paytaxt Moskvada və Rusiyanın digər iri şəhərlərində mənzillərin qiyməti ucuzlaşıb. Son bir ayda isə Moskvada daşınmaz əmlakın qiymətində artımlar müşahidə edilir. Güman olunur ki, artımlar davam edəcək. Rusiyada daşınmaz əmlak almaq istəyən azərbaycanlılar üçün ən uyğun şəhər Moskva və Sankt Peterburqdur. Bu şəhərlər istisna olmaqla digər şəhərlərdə qiymətlərin gələcəkdə belə kəskin artacağı proqnozlaşdırılmır. Güman olunur ki, sanksiyaların fonunda həmin şəhərlərdə əmlaka tələbat yüksəlməyəcək".



**Ekspertin fikrincə, Bakıda daşınmaz əmlaka yatırım etmək istəyənlər paytaxtdan kənarda yerləşən, qiyməti nisbətən ucuz olan torpaq sahələrini ala bilərlər:** "Xüsusən də şəhərin mərkəzindən sökülən mənzil sahiblərinə verilmən kompensasiyaları nəzərə alsaq, şəhərdən kənardakı ərazilərdə torpaq sahələrinin qiymətinin bahalaşacağı gözlənilir. Hətta neftin qiyməti ucuzlaşsa belə bu torpaq sahələrinə tələbat yüksək olacaq. Daşınmaz əmlaka yatırım etmək istəyənlər daha çox Mərkəzi və Şərqi Avropa ölkələrinə vəsait ayırması arzuolunandır. Xüsusən Çexiya, Polşa, Macarıstan və Bolqarıstanda hal-hazırda daşınmaz əmlakın qiyməti ucuzlaşır. Bu ölkələrdə daşınmaz əmlaka sərmayə qoyuluşu bir müddət sonra yüksək gəlir gətirəcək".

Vəsaitlərini qızıla yönəltmək istəyənlərə gəlincə, Vüqar Bayramov bildirdi ki, zinət əşyası kimi satılan qızılla pulun saxlanılması arzuolunan deyil: "Çünki bu zaman qızılın alış və satış qiyməti arasında fərq olduğu üçün bu, birmənalı şəkildə imkan vermir ki, qızılda vəsait saxlamaqla gəlir əldə etmək mümkün olsun. Əgər 1000 manatlıq qızıl zinət əşyası alınıbsa, onu satarkən ən yaxşı halda 700 manata geri alınır. Bu baxımdan qızıla yatırım etmək doğru deyil.

Ancaq bununla yanaşı, külçə halında satılan qızılın alınması arzuolunandır. Bütövlükdə 2015-ci ildə qızılın qiymətinin bahalaşacağı gözlənilir. Ona görə də qızıla yatırım etmək istəyən vətəndaşlarımız vəsaitlərini külçə qızıla yönəltsə daha yaxşı olar. Çünki külçə qızılların qiyməti dünya bazarındakı qiymətə uyğun olaraq müəyyən edilir".

❑ **Nərgiz LİFTİYEVA**

# "Avro uzun müddət təzyiq altında qalacaq"

## Ağa Muxtarov: "Son aylar neftin dəyərdən düşməsi bir çox ölkələrin iqtisadiyyatına neqativ təsir etmiş oldu"

**Dünya bazarında avro ucuzlaşmaqda davam edir. Azərbaycan Mərkəzi Bankının fevralın 2-nə olan məlumatına əsasən, 1 avro 0,8872 manat təşkil edib. Yanvarın 30-da isə 1 avro 0,8886 manat idi. Dünya bazarında avronun məzənnəsinin düşməsi ciddi müzakirə olunan məsələdir. Əksər ekspertlər məzənnə düşməsinin Azərbaycana ciddi təsir göstərəcəyi qənaətindədirlər.**

Qeyd edək ki, Avropa Mərkəzi Bankının rəhbəri Mario Draqinin kəmiyyət yumşadılması proqramını (QE) işə salmaqla bağlı çıxışı dünya valyuta bazarlarında avronu ucuzlaşdırıb. Bu çıxış avroya öldürücü təsir göstərib və valyuta bazarında avronun məzənnəsi son 11 ildə ən aşağı həddə düşüb.

Ekspertlər bildirirlər ki, ucuzlaşmanın əsas təsiri Avropadan Azərbaycana gələn malların qiymətlərində olacaq. Həmçinin idxal artacaq. Avropa Birliyinin ixracatında Azərbaycan məhsullarının bahalaşması səbəbindən müəyyən çətinliklər olacaq. Həmçinin bildirilir ki, avronun ucuzlaşması uzun müddət davam edə bilər. Çünki məlum proqram çərçivəsində hər ay dövriyyəyə 60 milyard avro buraxılacaq və həmin pula dövlət və özəl qiymətli kağızların alınması nəzərdə tutulur. Məqsəd Avrozonada illik inflyasiya səviyyəsini 2 faizə yaxın həddə saxlamaqdır. Proqram 2016-cı ilin sentyabr ayına qədər davam edəcək və vəziyyətdən asılı olaraq, uzadıla da bilər. Bu müddətdə Avropa iqtisadiyyatına yönəldilən vəsaitin həcmi 1,1 trilyon avro olacaq.

Ekspertlər qeyd edirlər ki, avronun ucuzlaşmasının sürətlənəcəyi aydın idi. Yəni Avropa Mərkəzi Bankının (AMB) devalvasiya siyasətinə gedəcəyi qabaqcadan bəlli idi. Odur ki, Azərbaycanda avroya görə narahatlıq keçirməyə əsas yoxdur. Avronun ölkəmiz üçün kritik həddə qədər ucuzlaşması da real görünmür. Yeganə, valyuta ehtiyatlarımızın bir hissəsinin avro ilə olması müəyyən narahatlıq yarada bilər ki, bunda da mənfi təsirlərdən sığortalanmaq üçün hökumətin əlində kifayət qədər geniş imkanlar mövcuddur.



**Ekspert Ağa Muxtarovun sözlərinə görə isə avro bazarda uzun müddət təzyiq altında qalmaqda davam edəcək:** "Birjada belə bir deyim var, şayiə əsasında al, fakta görə sat. Son zamanlar valyuta bazarında müşahidə edilən qeyri-müəyyən hərəkətlər bu deyimi tamamilə inkar etmiş oldu. Ümumilikdə son bir neçə aydır neftin dünya bazarında sərt dəyərdən düşməsi bir çox ölkələrin iqtisadiyyatına neqativ təsir etmiş oldu. Neqativ təsirlərdən milli iqtisadiyyatı qorumaq üçün mərkəzi banklar pul siyasətlərinə dəyişiklik etmək məcburiyyətində qaldılar. İlk növbədə bu addımı İsveçrə Mərkəzi Bankı yanvar ayının 13-də atmış oldu. İsveçrə Mərkəzi Bankı uçot faiz dərəcələrini 0,5 faizdən 0,75 faiz azaldaraq -0,25 faizdən -1,25 faizə qədər salmış oldu. Mərkəzi bankın bu ani qərarı frankın bazarda bir an içində sərt dəyər qazanmasına səbəb oldu. Ardınca neftin Kanadanın da iqtisadiyyatına vurduğu zərəri minimuma endirmək üçün Kanada Mərkəzi Bankı 2015-ci il üçün ÜDM-in artım gözləntisini 2,4 faizdən 2,1 faiz, uçot faiz dərəcəsini isə 1,00 faizdən 0,25 faizə salmış oldu".

Ekspertin sözlərinə görə, İsveçrə Mərkəzi Bankının atdığı addımdan sonra analitiklərə daha çox Avropa Mərkəzi Bankının (AMB) atacağı addım maraqlı idi. 2008-ci il böhranından sonra ölkə iqtisadiyyatını iqtisadi durğunluqdan xilas etmək istəyən AMB bir sıra pul siyasətlərini həyata keçirmiş olsa da, bu atılan addımlar effektli olmayıb. Avrozonada inflyasiya səviyyəsinin həddindən aşağı olması AMB-ni QE *(Quantitative Easing) (kütləvi yumşaltma siyasəti aktivlərin alınması)* proqramını tətbiq etməsinə səbəb oldu. 22 yanvar tarixində AMB-nin iclasında AMB-nin sədri Mario Draqinin rəsmi olaraq QE proqramının tətbiqini elan etməsi avronun bazarlarda sərt dəyər itirərək, EURUSD cütlüyünün valyuta bazarında 1,1115 qiymətinə qədər enməsinə zəmin yaratdı. Nəzərə alsaq ki, 1,1115 qiyməti 2003-cü ildən etibarən ən minimum səviyyə hesab olunur. "Ardınca Yunanıstanda parlament seçkilərinin yanvarın 24-də olması və bu seçkilərdə "Syriza" partiyasının 300 yerlik Yunanıstan parlamentində 149 yerə sahib olması Yunanıstan hökuməti ilə beynəlxalq kreditorlar arasındakı danışıqları dalana aparmış olacaq. Bu isə yenidən avronun bazarlarda hələ uzun müddət təzyiq altında qalmasını təmin edəcək",- deyə A.Muxtarov vurğulayıb.

Əksər ekspertlərə görə, dünya bazarlarında avronun ucuzlaşmasının Azərbaycanda təsiri təbiidir. Manat ABŞ valyutasına bağlı olduğundan dolların avroya qarşı dəyişmə dinamikası manatda da öz əksini tapır. Həmçinin bildirilir ki, avronun ucuzlaşması səbəbindən ölkədə valyutadəyişmə məntəqələrində spekulyasiya hallarının artması baş verəcək. Həmçinin avronun ucuzlaşmasının manata təzyiqi artıracağı proqnozlar sırasındadır.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT

Son səhifə

N 25 (6053) 4 fevral 2015



## Döyüldü, həyatı xilas oldu

İngiltərədə yaşayan Alan Barnes adlı kişinin həyatı başına gələn hadisədən sonra dəyişib. Belə ki, 67 yaşlı kişi zibil atdığı zaman tanımadığı şəxslər tərəfindən döyülüb. Uşaq vaxtından bəri bədəni inkişaf etməyən kişi həkimə getdikdən sonra ona yardım kampaniyasına start edilib. Yaşlı kişi üçün yardım kampaniyası başladan həkimlər bir neçə ay ərzində 500 min sterlinq yığılacağını gözləyirdilər. Lakin bir neçə günə 300 min sterlinq toplanıb. Yaşlı vaxtında varlandığını öyrənən kişi xoşbəxt olduğunu deyib.



## Üşümək keçici imiş

Üşüməyin əsnəmək kimi keçici olduğu fikrinə istinadla araşdırma aparan alimlər üşüyən birisini görənlərin də onlar kimi üşüməyə hissinə qapıldığını deyirlər. İngiltərədəki Sussex tibb fakültəsindəki araşdırmaçılar təcrübə zamanı əllərini isti və soyuq suda saxlayan şəxslərin videolarına baxıblar. Həmin vaxt təcrübədə iştirak edən şəxslərin bədən temperaturu ölçülüb. İsti su videosuna baxanların bədən temperaturunun yüksək, soyuq su videosuna baxanların isə aşağı olduğu məlum olub. Professor Neil Harrisona görə, psixoloji dəyişiklik insanların bir-birini daha yaxşı anlamasına səbəb olur. Bu da insanların asan və hüzurlu yaşamasına səbəb olur. Araşdırmanın nəticələri "Plos One" jurnalında yayımlanıb.

# 743 kiloluq balqabaq

Avstraliyada və Yeni Zelandiyada yetişdirilən ən böyük balqabağın da olduğu "Summerland" yarışmasında Davi Oliver adlı kəndlinin yetişdirdiyi tərəvəz hər kəsi heyrətləndirib. 743 kiloluq balqabağın sahibi özünü ən şanslı kəndlilərdən biri hesab edir. Yarışda ikinci yeri 669 kiloluq balqabaq tutub.



Bu il bölgədəki quraqlıq və şiddətli küləyə görə kəndlilər məhsullarını toplaya bilməyiblər. D.Oliver isə əksinə, yaxşı məhsul əldə edib: "Bu il çox şanslı idim. Həm suyum, həm də küləkdən qorunmaq üçün qurğularım var idi. Qabaqlar sonradan böyüməyə başladılar. Son günlərdə yağan yağışlar isə qabaqların daha da böyüməsinə səbəb oldu".

# Ədviyyatın faydaları

Zəncəfil xərçəngə qarşı qoruyucudur. Bununla yanaşı, infeksiya əleyhinə ən təsirli təbii ağrıkəsicidir, xüsusən də əzələ ağrılarına qarşı faydalıdır. Hafizəni gücləndirir, damar tutulmasının qarşısını alır, qanı təmizləyir, ürək döyüntülərini nizamlayır, yüksək xolesterol səviyyəsini aşağı salır.

Gündəlik istifadə olunan yarım çay qaşığı qədər darçın qlükozanı balanslaşdıraraq şəkər xəstəliklərinə qarşı qoruyucu təsiri ilə yanaşı xəstəlik zamanı digər əlamətləri də azaldır. Eyni zamanda darçın qəbul etdiyiniz ərzaqların yağa çevrilməsini də azaldır.

Acı bibərin tərkibində olan kapsaisin adlı maddə maddələr mübadiləsini 23% sürətləndirir. Arıqlamağa kömək edir.

Xardal yağın yığılmasını azaldır, qlükozanı balanslaşdırır. Salata və ya sendviçlərə yağ yerinə əlavə edə bilərsiniz.

Təsirli antioksidant olan bibər beyin sağlamlığı üçün əhəmiyyətlidir. Yaddaşsızlığa qarşı təsirlidir.





## Yaşlanmasın deyə, gülmür...

İngiltərədə yaşayan 50 yaşlı qadın Tess Kritian üzünün qırışmasını əngəlləmək üçün gülmür. Qızı dünyaya gəldiyi gündən bəri gülmədiyini deyərək hər kəsi təəccübləndirən qadın üz əzələlərini idarə edə bilir. "Daily Mail"ə müsahibəsində o, bunları deyib: "Qırışıqlarım yoxdu, çünki üz əzələlərimi idarə edə bilirəm. Hər kəs botoks etdirdiyimi düşünür. Üzümün qırışmamasının səbəbi gəncliyimdən bəri gülməməyim və qəhqəhə çəkməməyimdir. Mənim strategiyam bahalı kremlərdən və botoks iynələrindən daha çox işə yarayır. İlk dəfə rahibələrin məktəbində oxuyarkən gülməyin üzü qırışdırdığını öyrənmişdim. Hollivud ulduzlarının da gənc qalmaq üçün gülmədiyini bilirəm".

50 yaşlı qadın həyatının sonuna qədər gülmək istəmədiyini deyir.





QOÇ - Adi günlərdən birini yaşayacaqsınız. Hansısa qeyri-adi yenilik və ya uğursuzluq gözləməyin. Amma iqlim dəyişkənliyi daxili orqanlarınızda (ələlxüsus da böyrək və yoğun bağırsaqda) yüngül ağrılar yarada bilər.

BUĞA - Astroloji göstəricilər yalnız saat 12-yə qədərki vaxtı gərginlik içində başa vuracağınızı bildirir. Həmin zamanda maksimum ehtiyatlı olmalısınız. Qalan saatlarda isə çox şey ürəyinizcə olacaq.

ƏKİZLƏR - İlk iş saatları passiv başlasa da, nahara yaxın nəzərdə tutduğunuz planların əksəriyyəti öz həllinə yaxınlaşmağa başlayacaq. Amma gərək hər şeydən əvvəl ünsiyyət qurduğunuz şəxslərin etibarını yoxlayasınız.

XƏRÇƏNG - Səhhətinizi qoruya bilsəniz, gün ərzində heç bir çətinliklə rastlaşmayacaqsınız. Ulduzlar ailə-sevgi münasibətlərindəki soyuqluğu aradan qaldırmağınızı tövsiyə edir. Hissləri sındırmaqdan əl çəkin.

ŞİR - Yaxşı olar ki, gün ərzində bütün diqqətinizi pulla bağlı məsələlərə yönəldəsiniz. Əgər reallığa uyğun addım atsanız, səmərəli nəticəni görəcəksiniz. Büdcənizlə bağlı irəliləyişlər də gözlənilir.

QIZ - Sakit bir təqvim yaşayacaqsınız. Ara-sıra fikir və düşüncələrinizdə təlatümlər baş qaldırsa da, bunu kənardan heç kim bilməyəcək. Əgər maddi imkanınız yol versə, səfərə çıxmaq olar.

TƏRƏZİ - Saat 14-ə qədər əsəblərinizi cilovlaya bilsəniz, qalan saatlarda heç bir narahatçılığınız olmayacaq. Qarşınıza pulla bağlı çıxan problemlərin əksəriyyəti aktivliyinizdən asılı olaraq aradan qalxacaq.

ƏQRƏB - Ümumən gərgin gün olsa da, özünüzü cilovlamağı bacaracaqsınız. Əgər hansısa məsələdə tərəddüdünüz varsa, mütləq etibar etdiyiniz şəxslərin məsləhətlərindən yararlanın. Səfərə çıxmayın.

OXATAN - Bəxtinizə təzadlı bir gün düşüb. Hadisələrin gedişatı gah müsbət, gah da mənfi müstəvidə cərəyan edə bilər. Odur ki, ayıq-sayıqlığınızı artırmalı, prosesləri dərindən analiz etməli və məqamındaca addım atmalısınız.

OĞLAQ - Əsas diqqətinizi maliyyə problemlərinin həllinə yönəldin. Çünki indi - planetiniz olan Saturnun təsir gücünün artdığı bir vaxtda bunu bacarmasanız, qarşıda sizi uzunmüddətli kasıbçılıq gözləyə bilər.

SUTÖKƏN - Bəri başdan nəzərdə saxlayın ki, ixtiyarınızda olan bu gün bürcünüzün ən aktiv dövrünə çevriləcək. Hansısa uğursuzluq haqqında düşünməyə lüzum yoxdur. Əksinə, uğurların astanasına yetişəcəksiniz.

BALIQLAR - İlk öncə bildirək ki, hazırda ciddi bir seçim qarşısındasınız. Tərəddüdləriniz çox olsa da, özünüzü ələ almalı, cəsarət göstərib seçiminizi etməlisiniz. Yeni sövdələşmələr üçün ideal vaxtdır.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Panda sevənlərə pul verilir



Çinin Siçuan əyalətindəki Bifeng zooparkında gəzintiyə gələnlərə qeyri-adi xidmət göstərilir. Belə ki, panda sevənlər istədikləri vaxt pandalarla oynaya bilirlər. Üstəlik, bu əyləncə üçün onlara pul verilir. 80-dən çox balaca və böyük pandanın saxlanıldığı zooparkda ziyarətçilərdə panda sevgisi aşılamağa çalışırlar. Bu məqsədlə hər kəs pandaların qəfəsinə girə bilir və onlarla qala bilir. Araşdırmaçılar dünyadakı panda sayının hər gün azaldığını deyirlər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300